**Prezident İlham Əliyev Roma şəhərinin meri ilə görüşüb**



Bax 2

**Heydər Əliyev Fondunun layihələri Azərbaycan haqqında geniş təsəvvür yaradır**




Bax 5




SƏS QƏZETİ

Qoy ədalət zəfər çalsın!

**"Səs" qəzetinin 6000-ci nömrəsi işıq üzü gördü**

Bax 8




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 036 (6001) 22 fevral 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


Bax 2




# Romada Azərbaycan-İtaliya biznes forumu keçirilib

## Culyetto Kyeza: "Azərbaycan Prezidentinin İtaliyaya səfəri Bakı və Roma üçün əlamətdar hadisədir"



*"Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya dövlət səfəri əlamətdar hadisədir və Bakı ilə Roma arasında münasibətlərin inkişafı və möhkəmlənməsinə ciddi təkan verəcək". Bunu Trend-ə italiyalı siyasətçi və jurnalist Culyetto Kyeza deyib.*

Bax 7

Bax 9



## Ali Rada qondarma "erməni soyqırımı" layihəsini rədd etdi

Ukrayna Ali Radası qondarma "erməni soyqırımı"na dair qanun layihəsinin müzakirəsindən imtina edib. Ali Radanın hakim "Xalqın xidmətçisi"nin deputatı Darya Volodinanın təqdim etdiyi "erməni soyqırımı qurbanlarının anılması" ilə bağlı qanun ...



Bax 11

## Sarqsyanı təyin etdiyi hakim mühakimə edəcək

*Ermənistanın keçmiş prezidenti Serj Sarqsyanla bağlı cinayət işinə baxmalı olan hakim Vaqe Misakyan bundan imtina edə bilər. Oxu.az xəbər verir ki, V.Misakyan 2017-ci ilin noyabrında S.Sarqsyanın göstərişi ilə hakim təyin olunub.*

## Prezident zəng etdi, amma itinə görə Çindən ayrılmadı



Ötən gün koronavirusun geniş yayıldığı Çinin Uhan şəhərində yaşayan Ukrayna vətəndaşları Kiyevə təxliyə olunublar. Qafqazinfo xəbər verir ki, 3 ildir Çində yaşayıb işləyən Anastasiya Zinçenko pomeranian cinsindən olan Mişa adlı itinə görə şəhəri tərk edə bilməyib. Belə ki, Çin hökuməti Anastasiyaya 6 ay öncə aldığı itini özü ilə Ukraynaya aparmağa icazə verməyib. Ukraynanın Çindəki səfirliyi açıqlama yayaraq bildirib ki, Mişanın sahibi ilə Çindən...

Bax 16

## Messiyə 700 milyon avroluq sürpriz təklif!

Bax 16




"Barselona"nın ulduzu Lionel Messiyə ABŞ-dan təklif var. Bu barədə Amerikanın məşhur idman kanalı - ESPN məlumat yayıb. İddiaya görə, "Los Anceles Qalaksi" argentinalı ulduzu heyətinə qatmaq istəyir. MLS klubu Messi üçün mövsümün sonunda "Barselona"ya rəsmi təklif göndərəcək. "Los Anceles Qalaksi" komandanı tərk edən və "Milan"a dönən Zlatan İbrahimoviçin yerini Messi ilə doldurmaq istəyir...

**YAP İcra Katibliyində Yeni Azərbaycan Partiyasının könüllülərinin toplantısı keçirilib**



Bax 6

**"Azəriqaz"dakı islahatlar yüz dəfə ölçülüb və bir dəfə qərar verilib**



Bax 6

**Azərbaycanda keçirilən bütün seçkilər mətbuat üçün açıqdır və KİV-lər bu prosesdə önəmli rola malikdir**



Bax 7

# Prezident İlham Əliyev Roma şəhərinin meri ilə görüşüb

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Roma şəhərinin meri xanım Vircinia Raggi ilə görüşüb.***



AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Prezident İlham Əliyev İtaliyaya dövlət səfərinin nəticələrindən çox məmnun olduğunu bildirdi. Səfər çərçivəsində 25-dən çox sənədin imzalandığını vurğulayan dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan və İtaliya strateji tərəfdaşlardır. Bu strateji tərəfdaşlıq münasibətləri əlaqələrimizin bütün sahələrini əhatə edəcək.

Prezident İlham Əliyev səfər çərçivəsində keçirilən görüşlərin çox səmərəli olduğunu vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan ilə İtaliya arasında əlaqələr çox yüksək səviyyədədir. O cümlədən Azərbaycan ilə İtaliya arasında mədəni sahədə əməkdaşlıq və şəhərlərarası əlaqələr də inkişaf edir. 1972-ci ildə Bakı və Neapol qardaşlaşmış şəhərlər elan edilib. 2012-ci ildə Romanın Villa Borgeze parkında dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışı olub. Bundan başqa, Roma şəhərində Azərbaycan Mədəniyyət Mərkəzi fəaliyyətə







başlayacaq. Azərbaycan Prezidenti vurğuladı ki, Bakı və Roma arasında imzalanacaq bəyannamə şəhərlərimiz arasında əlaqələrin inkişafı üçün geniş imkan yaradacaq. Eyni zamanda, digər şəhərlərimiz arasında da belə əməkdaşlıq əlaqələri var.

Xanım mer Vircinia Raggi Romada arxeoloji qazıntılara verdiyi dəstəyə görə Azərbaycana təşəkkürünü bildirdi və bunu yüksək qiymətləndirdiklərini dedi. O, Bakı və Roma şəhərləri arasında əməkdaşlığı bundan sonra da davam etdirmək niyyətində və əzmində olduqlarını vurğuladı. Mer, həmçinin vurğuladı ki, 2020-ci ilin İtaliyada Azərbaycan Mədəniyyət İli elan edilməsi ilə əlaqədar Roma şəhərində də çoxsaylı tədbirlər keçiriləcək.

Görüşdən sonra dövlətimizin başçısı və Roma meri şəhərin qədim ərazisinin qalıqlarına baxdılar. Dövlətimizin başçısı Roma meriyasının Xatirə kitabına ürək sözlərini yazdı.

Qeyd edək ki, 2014-cü ilin iyulunda Prezident İlham Əliyevin İtaliyaya rəsmi səfəri zamanı Azərbaycanın Mədəniyyət Nazirliyi ilə Roma şəhər meriyası arasında saziş imzalanıb. Bu saziş "Mercati di Traiano" muzeyinin yerləşdiyi ərazidə arxeoloji qazıntı işlərinin aparılmasına maliyyə vəsaitinin ayrılmasını nəzərdə tuturdu.

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi. Diqqətə çatdırıldı ki, qazıntı işləri zamanı tarixi, arxeoloji dəyər kəsb edən çox əhəmiyyətli tapıntılar əldə edilib.

Qazıntı zamanı əldə edilən tapıntılar Prezident İlham Əliyevə təqdim olundu. Bildirildi ki, Roma şəhərinin sakinləri sazişə əsasən görülən işləri və əldə edilən tapıntıları çox yüksək qiymətləndirirlər və buna görə minnətdarlıq edirlər.

Sonra Prezident İlham Əliyevin iştirakı ilə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ilə Roma şəhər meriyası arasında əməkdaşlıq haqqında bəyannamə imzalandı. Bəyannaməni Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Roma şəhərinin meri xanım Vircinia Raggi imzaladılar.

# İtaliyada Azərbaycan Mədəniyyət İlinin açılışı münasibətilə konsert proqramı təqdim olunub





Fevralın 20-də Romadakı Kuirinale Sarayında "2020-ci il - İtaliyada Azərbaycan Mədəniyyət İli"nin açılışı münasibətilə konsert proqramı təqdim olunub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella konsert proqramını dinləyiblər. Konsertdə Azərbaycan Dövlət Kamera Orkestri görkəmli Azərbaycan və İtaliya bəstəkarlarının əsərlərini ifa edib.







CHI SIAMO LA REDAZIONE

askanews

Giovedì 20 Febbraio 2020

HOME POLITICA ECONOMIA ESTERI CRONACA REGIONI SPORT CULTURA SPETTACOLO NUOVA EUROPA VIDEO ALTRE SEZIONI

SPECIALI Cyber Affairs Libia-Siria Africa Asia Nomi e nomine Crisi Climatica Concorsa Fotografico Stenin 2020 Festival Sanremo

Home › Economia › Business Forum Italia-Azerbaigian per dare più impeto a relazioni

VIDEO

**Business Forum Italia-Azerbaigian per dare più impeto a relazioni**

Tra Tap e nuovi accordi commerciali anche in bioplastiche

Roma, (askanews) – C'è grande attesa per il Business Forum tra Italia e Azerbaigian che si svolgerà il 21 febbraio a Roma e a cui parteciperà anche il presidente azerbaigiano Ilham Aliyev accompagnato da un nutrito gruppo di aziende e rappresentanti del governo. Un'occasione per dare ancora più slancio ai rapporti politici ed economici nell'anno di finalizzazione del progetto energetico del Tap, ...

HUBLOT
CLASSIC FUSION CHRONOGRAPH BERLUTI COLD GOLD
LEARN MORE
Consiglio Regionale
TG Web Lombardia

VIDEO

Scarpe e borse di lusso per vegani,

# Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri bu ölkənin mətbuatının diqqətindədir

Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya dövlət səfəri bu ölkənin mətbuatının diqqət mərkəzindədir.



LIBERO 24x7

Prima pagina Lombardia Lazio Campania Emilia Romagna Veneto Piemonte

Cronaca Economia Mondo Politica Spettacoli e Cultura Sport Scienza e Tecnologia

**Conte incontra il Presidente della Repubblica dell'Azerbaigian**

Governo Italiano | 1 | Crea Alert | 2 ore fa

Politica - Il Presidente del Consiglio, Giuseppe Conte, giovedì 20 febbraio, incontra a Palazzo Chigi il Presidente della Repubblica dell'Azerbaigian, Ilham Aliyev ...

Leggi la notizia

Persone: presidente della repubblica conte
Organizzazioni: palazzo chigi
Luoghi: azerbaigian

ALTRE FONTI (2)

**Italia-Azerbaigian: presidente Aliyev sarà ricevuto oggi da Mattar...**

Roma, 20 feb 08:08 -, Agenzia Nova, - Il presidente della Repubblica dell'Azerbaigian Ilham Aliyev sarà ricevuto oggi al Quirinale dall'omologo italiano Sergio Mattarella. Il..., Res,

CONDIVIDI QUESTA PAGINA SU

Facebook Twitter Google+ Invia RSS

Mi piace Iscriviti per vedere cosa piace ai tuoi amici.

Tag Persone Organizzazioni Luoghi Prodotti

AZƏRTAC xəbər verir ki, İtaliyanın bütün nüfuzlu xəbər qaynaqları, televiziyaları və yerli mətbuatı səfərin gedişatını diqqətlə izləyir. Bildirilir ki, Prezident İlham Əliyevin səfəri, İtaliya rəsmiləri ilə keçiriləcək görüşlər ölkələrimiz arasındakı münasibətləri yeni mərhələyə çıxaracaq. Azərbaycanın dövlət başçısının səfəri çərçivəsində fevralın 21-də İtaliya-Azərbaycan Biznes Forumu da baş tutacaq. Bu tədbirin iqtisadi tərəfdaşlığa ciddi impuls verəcəyi qeyd olunur.



giovedì 20 febbraio 2020 Select Your Language LOGIN ABBONAMENTI

agenzia NOVA

ULTIM'ORA India: protesta a Shaheen Bagh, infruttuoso primo incontro tra manifestanti e interlocutori Corte suprema

INTERNI ESTERI ECONOMIA ROMA MILANO NAPOLI TORINO DIFESA ENERGIA INFRASTRUTTURE ARCHIVIO

ITALIA-AZERBAIGIAN

**Italia-Azerbaigian: presidente Aliyev sarà ricevuto oggi da Mattarella e Conte (2)**

*Roma, 20 feb 08:08 - (Agenzia Nova)* - Domani, invece, è previsto il business forum italo-azerbaigiano alla Farnesina, un appuntamento dedicato alle relazioni economico-commerciali. La presenza imprenditoriale italiana in Azerbaigian è già molto ampia, ma ci sono ovviamente importanti opportunità di sviluppare il potenziale inespresso della cooperazione. In un incontro con la stampa italiana tenutosi nei giorni scorsi a Baku, il consigliere presidenziale azerbaigiano, Hikmet Hajiyev, ha lodato l'operato delle aziende italiane attive in Azerbaigian. "Le imprese italiane qui stanno facendo un ottimo lavoro, ma c'è del potenziale inespresso", ha spiegato Hajiyev, secondo cui l'obiettivo delle autorità di Baku è fare in modo che le nostre aziende non si limitino a inviare prodotti finiti in Azerbaigian. "Vogliamo che i marchi italiani realizzino il prodotto finito qui, nel nostro territorio. Abbiamo risorse di vario genere e possiamo sfruttare il know-how e le tecnologie delle aziende italiane per ottimizzare questi processi in Azerbaigian", ha detto Hajiyev. Il consigliere presidenziale ha indicato vari settori in cui si potrebbe sviluppare questa cooperazione. "Il comparto tessile, dato che stiamo sviluppando la nostra produzione di cotone; il ramo della trasformazione alimentare, in cui l'importazione di tecnologie consentirebbe di realizzare in Azerbaigian prodotti che abitualmente acquistiamo dai partner italiani; e quello farmaceutico, un altro segmento in cui l'Italia eccelle", ha spiegato Hajiyev. (segue) (Res) © *Agenzia Nova - Riproduzione riservata*

Continua a leggere...

[«Torna indietro]

ARTICOLI CORRELATI

• 20 feb 08:08 - Italia-Azerbaigian: presidente Aliyev sarà ricevuto oggi da Mattarella e Conte (3)

SCARICA L'APP: Disponibile su Google play; Scarica su App Store

ANALISI: Atlantide; Mezzaluna; Corno d'Africa

RUBRICHE: Business News; Speciale energia; Speciale difesa; Speciale infrastrutture

RASSEGNE STAMPA

TUTTE LE NOTIZIE SU..: GRANDE MEDIO ORIENTE; EUROPA ORIENTALE; AFRICA SUB-SAHARIANA; ASIA; AMERICHE

النشرة العربية

SPECIALI
- Nova al Forum economico di Astana
- 20 anni della missione Kfor
- Azerbaigian, tra energia e multiculturalismo
- Nova alla Trident Juncture 2018
- Dieci anni di Kosovo
- La Croazia e l'Ue
- I vent'anni di Astana
- Nova in Azerbaigian
- Il Lazio ad Expo Astana
- L'amicizia fra Roma e Baku

» TUTTI GLI SPECIALI «

# Romada Azərbaycan-İtaliya biznes forumu keçirilib

***Fevralın 21-də Romada Azərbaycan-İtaliya biznes forumu keçirilib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev biznes forumda iştirak edib.***



Tədbirin aparıcısı: Hamınızı salamlayıram. Bu gün burada bu qədər çox olduğunuza görə sizə təşəkkür edirəm. Bu gün biznes forumu açıq elan edirik. Mən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi burada gördüyümə çox şadam və şərəf hissi keçirirəm. İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq nazirini burada görməkdən çox məmnunam. Vaxt itirmədən sözü Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq nazirinə verirəm.

İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri biznes forumda çıxış edib. Nazir Luici Di Mayon öz çıxışında qeyd edib ki, İtaliya Aralıq dənizi və Avropa, Afrika və Asiya ilə bir yerdə böyük bir körpü təşkil edir. Bu körpü Avropa ilə Asiya arasında strateji tərəfdaşlığa malikdir:

“Azərbaycan və İtaliya istər tarixi, istərsə də coğrafi cəhətdən qədim ölkələrdir. Məşhur italyan səyyahı Marko Polo öz əsərlərində Azərbaycan haqqında, Yanardağ haqqında danışmışdır. O, hələ XIII əsrdə iş adamlarına, yəni, o vaxtın tacirlərinə Azərbaycan haqqında məlumat vermişdir.

Azərbaycan ilə İtaliya arasında münasibətlər həm dostluq əlaqələrinə əsaslanır, həm də mədəni, etnik, dini və müxtəlif dilləri birləşdirən dialoq üzərində qurulmuşdur. Sizin bu gün İtaliyaya səferiniz ilk dövlət səfərinizdir. Bu, bizim əlaqələrimizin yüksək səviyyədə olduğunu göstərir.

Roma ilə Bakı arasındakı dostluğu və yaxınlığı Sizin İtaliyaya bu səfəriniz bir daha təsdiqləyir. Son illərdə İtaliya ilə Azərbaycan arasında ticari əlaqələr möhkəmlənib. Bu, bizim əlaqələrimizin dinamik şəkildə inkişafına böyük dəstək verib.

Dünən Çoxtərəfli Strateji Əməkdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması bizim əlaqələrimizə növbəti dəstək verəcək. Biz bilirik ki, bu əlaqələr təkcə energetika sahəsində deyil, eləcə də Roma ilə Bakı arasında olan körpünü özündə birləşdirir və münasibətlərimizin daha geniş şəkildə inkişafına kömək edəcək.

İtaliya Azərbaycanın birinci ticari tərəfdaşı hesab olunur. On ildən az müddətdə bizim ticari əlaqələrimiz 70 faizə qədər artıb. Son on ildə İtaliyanın Azərbaycandan olan idxalı 55,5 milyon avro təşkil edib. Bu gün burada iştirak edən italyan şirkətləri müxtəlif sahələr - nəinki neft və qaz sahəsi, eləcə də digər sahələr üzrə fəaliyyət göstərirlər. Bu şirkətlərin əlaqələrimizin inkişafına öz dəstəyini verməsi gözlənilir. Son 15 ildə İtaliya şirkətləri tərəfindən Azərbaycanda qazanılmış tenderlərin dəyəri 7 milyard avro təşkil edir.

Bizim münasibətlərimiz mühüm strateji əməkdaşlığımızı bir daha təsdiq edir. Həqiqətən də Azərbaycan hökumətinin iqtisadiyyat sahəsində, eləcə də iş adamları ilə münasibətləri möhkəmlətmək istiqamətində göstərdiyi səylərə görə çox böyük minnətdarlığımızı bildiririk. Hökumət biznes mühitinin, eləcə də KOB-ların və digər iş adamlarının hüquqi sistem baxımından qorunmasına böyük dəstək göstərir. Biz buna görə də təşəkkürümüzü bildiririk.

Bizim 100-dən çox şirkətimiz hazırda Azərbaycanda fəaliyyət göstərir. İstər dizayndan turizmə, istər aqrar sənayedən yaşıl texnologiyaya və istərsə də nəqliyyatdan logistikaya qədər hər bir sahədə biz Azərbaycanda fəaliyyət göstəririk. Təbii ki, bu, şirkətlərimizə Azərbaycanda göstərilən böyük dəstəyin nəticəsidir.”

Sonra biznes forumda Azərbaycan Prezidenti çıxış edib. Prezident İlham Əliyev öz çıxışında əmin olduğunu bildirib ki, forum çox məhsuldar olacaq və forumun işi nəticəsində iki ölkə arasındakı iqtisadi və ticari əlaqələr yeni pilləyə qalxacaq:

“Mən buna əminəm. Bunu deməyə əsas verən bir çox amillər var. Bildiyiniz kimi, bu gün mənim İtaliyaya dövlət səfərimin sonuncu günüdür. Prezident Mattarellanın dəvəti ilə mən gözəl ölkənizdə dövlət səfərindəyəm və bu, münasibətlərimizin çox yüksək səviyyədə olmasının təzahürüdür. 2018-ci ildə Prezident Mattarella Azərbaycanda rəsmi səfərdə idi və deyə bilərəm ki, o səfərdən sonra iki dövlət arasındakı əlaqələrə çox güclü təkan verilmişdir. Dünən və bu gün 25-dən çox sənədin imzalanması bunun əyani sübutudur. Çünki yalnız bir-birinə çox yaxın olan ölkələr arasında bu qədər sənədlərin imzalanması mümkündür. Bu sənədlər bir çox sahələri əhatə edir. Siyasi, iqtisadi, mədəni, humanitar, təhsil, energetika, kosmik sənaye, hərbi sənaye və digər sahələri əhatə edən bu sənədlər gələcək əməkdaşlığımız üçün gözəl baza yaradır. Bu sənədlərin arasında çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannaməni xüsusilə qeyd etmək istərdim. Bu, çox ciddi siyasi sənəddir və əslində, bizim gələcək ikitərəfli əməkdaşlığımızın əsas prioritetlərini müəyyən edən bir sənəddir. Bu sənəddə çox önəmli müddəalar var. Bu müddəalar onu göstərir ki, bizim əlaqələrimiz hətta müttəfiqlik əlaqələrinə yaxındır. Çünki oradakı maddələrdən birində göstərilir ki, biz beynəlxalq təşkilatlarda maraqlarımızı nəzərə alaraq bir-birimizi dəstəkləyəcəyik.

O ki qaldı, iqtisadi sahəyə, cənab nazirin dediyi kimi, İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Ancaq biz onu bilməliyik ki, bu, ilk növbədə, Azərbaycandan İtaliyaya xam neftin ixrac edilməsinə görə mümkün olmuşdur. Bizim əsas vəzifəmiz ticarət əlaqələrimizin şaxələndirilməsidir. Neft-qaz sektorundan başqa layihələrin həyata keçirilməsi, hesab edirəm ki, belə imkanlar yaradacaqdır.

Azərbaycan uzun illərdir ki, İtaliyanı xam neftlə təchiz edir. Azərbaycandan gələn xam neft İtaliyanın istehlakının 18 faizini təşkil edir və Azərbaycan birinci yerdədir. TAP layihəsinin uğurla başa çatması nəticəsində Azərbaycan və İtaliya bundan sonra onilliklər ərzində qaz sahəsində çox etibarlı tərəfdaşlar kimi birgə fəaliyyət göstərəcəklər. TAP layihəsi başa çatmaq üzrədir. Layihənin icrası 92 faiz təşkil edir və bildiyiniz kimi, TAP Cənub Qaz Dəhlizinin 4-cü seqmentidir. Bu günə qədər digər 3 seqmentdə işlər tamamilə başa çatıb. Əminəm ki, bu ilin sonunda biz layihənin tam istismara verilməsini qeyd edəcəyik. Dünən Nazirlər Şurasının Sədri cənab Konte ilə görüş zamanı mən onu Azərbaycanda keçiriləcək təntənəli rəsmi mərasimə dəvət etdim. O da bu dəvəti qəbul etdi.”

Dövlətimizin başçısı daha sonar qeyd edib ki, İtaliyanın turizm sahəsində nadir təcrübəsi var. İtaliya turistlərin sayına görə dünyada birinci, ya ikinci yerdədir. Azərbaycanda da bu sahə inkişaf edir. Keçən il turistlərin sayı təqribən 20 faizə yaxın artıb:

“Şadam ki, son üç il ərzində İtaliyadan Azərbaycana gələnlərin sayı təxminən 40 faiz artmışdır. Bu, insanlar arasındakı əlaqələrə də çox müsbət təsir göstərir.

Azərbaycan ilə İtaliya arasında mədəniyyət sahəsindəki əməkdaşlığı xüsusilə qeyd etmək istərdim. Artıq səkkiz ildir ki, Villa Borgeze parkında dahi Azərbaycan şairi Nizaminin abidəsi ucalıb. Azərbaycanın Romada Mədəniyyət Mərkəzinin fəaliyyət göstərməsi ilə bağlı müvafiq addımlar atılıbdır. Şəhərin mərkəzində gözəl bina alınıbdır və əminəm ki, yaxın zamanlarda Azərbaycan Mədəniyyət Mərkəzi Romada fəaliyyətə başlayacaq.

Biz bütün başqa sahələrdə də əməkdaşlığa açığıq. Azərbaycanın gələcək planlarına gəldikdə, infrastruktur layihələri prioritet təşkil edəcək və biz İtaliya şirkətlərini dəvət edirik. Əminəm ki, biznes forum çərçivəsində Azərbaycanda görüləcək işlər haqqında təqdimat ediləcək və İtaliya şirkətləri məlumatlandırılacaqlar. Xüsusilə, içməli su layihələri, meliorativ tədbirlərin görülməsi və Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılması bu gün gündəlikdə duran məsələlərin arasındadır. Çünki Bakının da yerləşdiyi Abşeron yarımadasının neft hasilatına görə ekoloji vəziyyətinin yaxşılaşdırılmasına böyük ehtiyac var. Azərbaycan dövləti bu məqsədlərə böyük vəsait ayırır. Bildiyimə görə, İtaliya şirkətləri bu sahədə hələ ki, fəal işləmirlər. Digər Avropa şirkətləri, demək olar ki, bu sahəni əhatə edirlər. Ona görə mən İtaliya şirkətlərini bu sahəyə dəvət edirəm. Əminəm ki, Azərbaycan hökumətinin üzvləri bu məsələ ilə bağlı lazımi məlumatı təmin edəcəklər.

Əminəm ki, elektroenergetika sahəsində imzalanmış memorandum icra ediləcək. Yenə də qayıdıram Davos Ümumdünya İqtisadi Forumunun hesabatına. Orada göstərilir ki, elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Bizim bütün yaşayış məntəqələrimiz elektrik enerjisi ilə təchiz edilib. Biz elektrik enerjisini ixrac edirik. Bu ilin yanvar ayında iki böyük şirkətlə 440 meqavat gücündə külək və günəş elektrik stansiyalarının tikintisi ilə bağlı müvafiq sənədlər imzalanıb. İtaliya şirkətlərini də bu sahəyə dəvət edirik. Bizim bərpaolunan enerji ilə bağlı çox böyük potensialımız var. Azərbaycanda İtaliyadakı kimi, günəşli günlər kifayət qədər çoxdur. Ancaq İtaliyadan fərqli olaraq küləkli günlər də çoxdur. Bəzən bu, problem yaradır. Ancaq bərpaolunan enerjinin istehsalı üçün, hesab edirəm ki, bu, əlverişli amildir. Ona görə bu sahəyə də İtaliya şirkətlərini dəvət edirik.

O ki qaldı, Azərbaycanın ümumi iqtisadi inkişafına, ölkəmizin iqtisadi vəziyyəti çox sabitdir. Bizim çox aşağı səviyyəli xarici dövlət borcumuz var, ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Mənim tərəfimdən təsdiq edilmiş strategiyaya görə, bir neçə il ərzində bu, 10 faizə düşməlidir. Bizim valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan altı dəfə çoxdur. Ona görə biz istənilən vaxtda xarici borcu sıfırlaya bilərik. Yəni, bu, imkan verir ki, biz önəmli layihələrə beynəlxalq maliyyə bazarlarından da vəsait cəlb edək, baxmayaraq ki, Beynəlxalq Maliyyə Korporasiyası - IFC-nin hesabatında Azərbaycan artıq donor ölkə kimi tanınır və bu imkanlar gələcəkdə artacaqdır.

Onu da bildirməliyəm ki, Azərbaycan ölkədən kənarda böyük investisiyalar qoyur, böyük layihələr icra edir. Bu günə qədər ölkəmizin hüdudlarından kənarda təqribən 17 milyard dollar həcmində sərmayə qoyulubdur. İtaliya şirkətləri də bu layihələrdə iştirak edirlər. Dünən biz bu barədə söhbət etdik. Biz gələcəkdə Azərbaycanın maliyyə təminatı ilə xarici ölkələrdə reallaşan layihələrə İtaliya şirkətlərini də dəvət edirik.

Bütövlükdə son 16 il ərzində Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artıb. Bu, dünya miqyasında rekord göstəricidir. Eyni zamanda, əldə edilmiş gəlirlər ədalətli şəkildə bölünüb. Bunu deməyə əsas verən mühüm amil odur ki, 16 il bundan əvvəl Azərbaycan əhalisinin təxminən 50 faizi yoxsulluq şəraitində yaşayıb. Bu gün isə yoxsulluq şəraitində yaşayanların sayı 4,8 faizdir. Bir sözlə, ölkə qarşısında ciddi iqtisadi problemlər yoxdur. Əsas məsələ biznes iqliminin yaxşılaşdırılmasıdır və bu sahədə də islahatlar aparılıb və bu gün yəqin ki, bu barədə danışılacaq. Bir məsələni qeyd etmək istəyirəm ki, Dünya Bankının “Doing Business” hesabatında Azərbaycan biznes mühitinin sağlamlaşdırılması istiqamətində atılmış addımlara görə 20 ən islahatçı ölkə sırasındadır.”

# Heydər Əliyev Fondunun layihələri Azərbaycan haqqında geniş təsəvvür yaradır




***Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə Ümumilli Lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək və Onun azərbaycançılıq məfkurəsini təbliğ edən Heydər Əliyev Fondu milli dövlətçilik ideyalarının yeni nəsillərə aşılanması, dövlətin mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası prosesi kimi, ali dəyərlərə xüsusi diqqət yetirərək, bu istiqamətdə böyük layihələr həyata keçirir. Azərbaycanın məxsusi dəyərlərini, həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycanın ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarların təşkilində, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasına önəm yetirir. Ümummilli Lider Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, Onun bütün nəsillərə örnək olan irsini təbliğ etmək məqsədi ilə fəaliyyətə başlayan Heydər Əliyev Fondu Azərbaycanın sosial inkişafına xidmət edən genişmiqyaslı proqram və layihələrin icraçısına çevrilib.***

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban Əliyevanın təşəbbüsü və məqsədyönlü fəaliyyəti nəticəsində, fond fəaliyyəti dövründə müxtəlif sahələri əhatə edən çoxsaylı layihələr reallaşdırmış, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri qurmuşdur. Azərbaycan cəmiyyətində gənc nəslin biliklərə yiyələnməsini və ölkəmizin dünya təhsil sisteminə inteqrasiyasını prioritet məsələlərdən hesab edən təhsilin inkişafına yönəlmiş genişmiqyaslı proqram və layihələri - "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb" proqramları, "Təhsilə dəstək" layihəsi, qısa bir zaman məsafəsində, böyük uğurlara səbəb oldu. Heydər Əliyev Fondunun xüsusi diqqət yetirdiyi prioritet sahələrdən olan ölkəmizdə tolerantlıq ənənələrinin qorunmasıdır. "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində dini abidələrdə bərpa işləri aparılıb.

Mehriban xanım Əliyeva azərbaycançılıq ideyalarının çarçısı olaraq Azərbaycandan kənarda da amalını gerçəkləşdirmək yönümündə irimiqyaslı layihələri ilə çıxış edir. Onun böyük təşəbbüsü ilə müasir dövrümüzdə fondun ABŞ, Rusiya Federasiyası, Rumıniya və Türkiyədə nümayəndəlikləri fəaliyyət göstərir. Sözsüz ki, belə dövlətlərdə nümayəndəliklərin yaranması Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əhəmiyyətlidir. Xüsusən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini beynəlxalq ictimaiyyətə çatdırılmasında, birmənalı olaraq, fəaliyyətini davam etdirir. Bildiyimiz kimi, hər il dünyanın bir sıra böyük şəhərlərində - Moskva, Berlin, Strasburq, Brüssel, Buxarest, Cenevrə, Ankara, İstanbul, Paris, Praqa, Vaşinqton, Nyu-York, Varşava, London, Haaqa, Dubay, Kiyev və Tbilisidə Xocalı soyqırımının ildönümünə həsr olunmuş aksiyalar həyata keçirilir ki, bunların hər birində təşəbbüskar Heydər Əliyev Fondudur.

### HEYDƏR ƏLİYEV FONDU AZƏRBAYCAN HƏQİQƏTLƏRİNİN BEYNƏLXALQ İCTİMAİYYƏTƏ ÇATDIRMASINDA KÖRPÜDÜR

Heydər Əliyev Fondunun fəaliyyət göstərdiyi sahələrdən biri də elm və texnologiyadır. Azərbaycan həqiqətlərinin internet şəbəkəsi vasitəsilə dünyaya yayılması və xalqımızın min illər boyu yaratdığı maddi-mənəvi dəyərlərin dünyaya tanıdılması məqsədi ilə fond tərəfindən materialların həcminə, zənginliyinə və əhatəliliyinə, habelə, istifadə olunmuş internet texnologiyalarına görə ölkəmizdə analoqu olmayan "Azərbaycan" internet portalı yaradıldı. Azərbaycan, ingilis və rus dillərində tərtib olunan "Azərbaycan" portalı ölkəmizin beynəlxalq aləmdə təbliği işinə, dünyada Azərbaycan haqqında tam, həqiqi və dolğun təsəvvür yaradılmasına böyük kömək göstərir. Eyni zamanda, Heydər Əliyev Fondu tərəfindən müxtəlif saytlar və multimedia diskləri hazırlandı. 2005-ci ildən başlayaraq Azərbaycan, ingilis və rus dillərində Ulu Öndər Heydər Əliyevin və akademik Zərifə Əliyevanın həyat və fəaliyyətlərinə həsr olunmuş saytlar, multimedia diskləri, həmçinin, fondun fəaliyyətini əks etdirən sayt yaradılaraq ictimaiyyətin istifadəsinə verildi.

Azərbaycan haqqında həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmağa önəm verən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş layihələr sırasında "Qarabağ həqiqətləri" bukletlər toplusunun nəşri xüsusi əhəmiyyətə malikdir. Qarabağın tarixi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlanması, onun nəticəsində ölkəmizə dəyən ziyan, Xocalı soyqırımı, ermənilərin dünyanın müxtəlif ölkələrində törətdiyi terror aktları haqqında faktları əks etdirən və ingilis, fransız, alman, rus, macar dillərində nəşr olunmuş bukletlər indiyədək bir çox xarici ölkələrdə yayılmışdır. "Müharibə və tarixi-mədəniyyət abidələrimiz" kitabında Azərbaycanın işğal olunmuş ərazilərindəki ziyarətgahlar və digər tarixi-mədəniyyət abidələri haqqında ətraflı məlumat verilir.

"Qarabağ həqiqətləri" silsiləsinin, davamı olaraq, 2007-ci ildə Heydər Əliyev Fondu Ermənistanın Azərbaycan mədəniyyətinə, maddi-mənəvi irsimizə qarşı məqsədyönlü şəkildə həyata keçirdiyi vandalizm siyasətindən və onun acı nəticələrindən bəhs edən "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabını ingilis dilində nəşr etdirdi. Kitaba işğal olunmuş rayonlarımızdakı mədəni sərvətlərimizin siyahısı, xəritələr, habelə, Ermənistan ərazisində və işğal altındakı bölgələrimizdəki tarixi və mədəniyyət abidələrimizin əvvəlki və indiki vəziyyətini əks etdirən videomateriallar əlavə olunub. Rus alimi, yazıçı-tarixçi, professor Rudolf İvanovun "Bəyazidin müdafiəsi: həqiqət və yalan", "Əlahəzrətin general - adyutantı. Hüseyn xan Naxçıvanski haqqında dastan", "Sovet İttifaqı adından" kitabları rus dilində nəşr olunub.

### FOND TƏRƏFİNDƏN HAZIRLANAN İKİ YENİ NƏŞRDƏ OXUCULAR ÖLKƏMİZLƏ YAXINDAN TANIŞ OLACAQLAR

Heydər Əliyev Fondu nəşləri sırasında fransız dilində çap edilən "Azərbaycan" kitabı xalqımızın qədim tarixini, ənənələrini, mədəniyyətini, etnoqrafik xüsusiyyətlərini əks etdirməklə yanaşı, ölkəmizin keçmişini və bu gününü, müasir simasını da təcəssüm etdirir. Bu kitab oxucuda ölkəmiz haqqında əyani təsəvvür yaratmaq, onu tanımaq və sevmək baxımından çox böyük əhəmiyyətə malikdir. Kitabda paytaxt Bakı ilə bərabər, bütün bölgələr barədə şəkillər və materiallar əksini tapmışdır. Ölkəmizin qədim tarixinin, memarlığının, mədəniyyətinin bütün tərəfləri ilə əks olunduğu "Azərbaycan" nəşri ilə tanışlıq respublikamız və paytaxt Bakı haqqında dolğun təəssürat yaratmaqla, onun mədəniyyətlər və sivilizasiyaların qovuşuğunda yerləşməsindən xəbər verir.

Fondun prezidenti Mehriban Əliyevanın fəaliyyətində bu strateji istiqamətlərdə möhtəşəm layihələr davam edir. Belə ki, Heydər Əliyev Fondu tərəfindən Azərbaycana həsr olunan iki yeni nəşr hazırlanır. Hazırda bu kitablarda yer alacaq mövzular üzrə fotoçəkilişlərə başlanılıb. Fondun Azərbaycana həsr olunan nəşrində xalqımızın qədim tarixini, ənənələrini, mədəniyyətini, ölkənin müasir simasını, flora və faunasını təcəssüm etdirən fotoşəkillər və müvafiq məlumatlar əksini tapacaq. Heydər Əliyev Fondunun hazırladığı digər nəşrdə isə Azərbaycan barədə müxtəlif sahələr üzrə məlumatlar toplanacaq. Nəşrdə ölkənin iqtisadiyyat, ekologiya, mədəniyyət, idman və s. sahələri, multikulturalizm ənənələri, turizm imkanları və digər istiqamətlər əhatə olunacaq, müvafiq fotoşəkillər yer alacaq. Oxucular bu nəşrlərlə Azərbaycan barədə müfəssəl məlumat əldə etməklə yanaşı, ölkə ilə yaxından tanış olacaq, fotoşəkillər vasitəsilə Azərbaycana virtual səyahət edə biləcəklər.

Göründüyü kimi, Mehriban xanım Əliyevanın Azərbaycan həqiqətlərinin təbliği sahəsində gördüyü işlər əvəzsizdir. Qərb və Şərq sivilizasiyalarının kəsişməsində yerləşən qədim ölkə olan Azərbaycanın mədəniyyətinə, milli dəyərlərinə bu şəkildə yanaşma yetişən nəsildə mövcud dəyərlərə məhəbbət yaradır. Qərblə Şərqin qovuşuğunda yerləşən Azərbaycan və onun paytaxtı Bakı bir çox dövrlərdə dünya mədəni irsinə layiqli töhfələr vermişdir. Bu proses indi də davam edir. Heydər Əliyev Fondu Azərbaycanın beynəlxalq arenada tanınmasına, qədim və zəngin mədəniyyətə malik xalqımız haqqında obyektiv ictimai rəyin formalaşmasına öz töhfələrini verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP İcra Katibliyində Yeni Azərbaycan Partiyasının könüllülərinin toplantısı keçirilib








Fevralın 21-də YAP İcra Katibliyində Yeni Azərbaycan Partiyasının könüllülərinin toplantısı keçirilib. Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədovun, partiyanın İdarə Heyətinin və Siyasi Şurasının üzvlərinin iştirak etdiyi toplantıda əvvəlcə Yeni Azərbaycan Partiyasının könüllülərinin fəaliyyətinə həsr olunmuş video-çarx nümayiş etdirilib.

Sonra çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirib ki, Azərbaycanın sürətli inkişafı, ictimai həyatın bütün sahələrində əldə etdiyi nailiyyətlər dövlət gənclər siyasətində də özünü bariz şəkildə göstərir. Onun sözlərinə görə, Prezident İlham Əliyevin uğurlu siyasətinin ən mühüm istiqamətlərindən biri cəmiyyətin fəal təbəqəsi olan gənclərin yüksək dövlət qayğısı ilə əhatə olunmasıdır. Ümumiyyətlə, Azərbaycanda həyata keçirilən gənclər siyasəti özünün mütərəqqiliyi ilə fərqlənir, başqa sözlə, dünyada nümunə kimi çıxış edir. Öz növbəsində, Azərbaycan gəncləri də ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edirlər. Ən əsası, Azərbaycan gəncləri ölkəmizin milli maraqlarının keşiyində durublar, öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər.

S.Orucov deyib ki, bu gün ölkəmizi beynəlxalq miqyasda uğurla təmsil edən, eyni zamanda, respublikamızın ictimai-siyasi, iqtisadi həyatında fəal rol oynayan Azərbaycan gəncləri vətənpərvər, yüksək intellektli, milli mənəvi dəyərlərinə, tarixi köklərinə, dövlətə və Vətənə sadiq olmaqla yanaşı, ictimai-siyasi məsələlərlə bağlı əsl vətəndaşlıq mövqeyindən çıxış edərək yüksək fəallıq və təşəbbüskarlıq göstərirlər. O qeyd edib ki, ölkəmizdə gənclər siyasətinin səmərəliliyini təmin edən mühüm amillərdən biri könüllülük fəaliyyətinə xüsusi diqqət göstərilməsidir: “Könüllülük insanları vahid məqsəd ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatlardan biridir. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyətində könüllülər hərəkatına böyük önəm verilir. Dövlət başçısı tərəfindən 2020-ci ilin ölkəmizdə “Könüllülər ili” elan olunması bunun bariz ifadəsidir”.

YAP Gənclər Birliyinin sədri partiyanın gənclərinin də könüllülər hərəkatında fəal iştirak etdiyini və çoxsaylı layihələrdə fəal iştirak etdiyini diqqətə çatdırıb. S.Orucov bu prosesdə partiyanın rəhbərliyinin gənc könüllülərə lazımi dəstək verdiyini söyləyib.

Tədbirdə həmçinin, YAP Gəncə şəhər təşkilatı Gənclər Birliyinin sədri Kamran Abbasov, YAP Tərtər rayon təşkilatı Gənclər Birliyinin sədri Turanə Məmmədzadə, YAP Ucar rayon təşkilatı Gənclər Birliyinin sədr müavini İnci Əhmədzadə və YAP Oğuz rayon təşkilatı Gənclər Birliyinin sədri Elşən Alcansoy çıxış edərək Prezident İlham Əliyev tərəfindən 2020-ci ilin Azərbaycanda “Könüllülər ili” elan olunmasının əhəmiyyətini bildirib, YAP könüllülərinin fəaliyyətindən ətraflı bəhs ediblər.

Sonda YAP-ın könüllüləri müxtəlif nominasiyalar üzrə mükafatlandırılıblar.

# “Azəriqaz”dakı islahatlar yüz dəfə ölçülüb və bir dəfə qərar verilib

***“İslahatlar hər zaman ehtiyac duyulan bir işdir. Həyatımız, cəmiyyətimiz nə qədər varsa, daha yaxşı iş, daha yaxşı yaşayış və daha yaxşı cəmiyyətin formalaşması uğrunda islahatlar davam etdirilməlidir”. Bunu açıqlamasında “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.***



Onun sözlərinə görə, islahatlar zəruridir: “Ola bilər ki, bu gün reallaşan islahat gələcəkdə daha başqa bir formada həyata keçirilsin, reallaşdırılsın. İnkişaf olan yerdə islahatlara zərurət yaranır. “Azəriqaz” İstehsalat Birliyində üç departamentin birləşdirilməsi mütəxəssislər tərəfindən yüz dəfə ölçülərək qərar verilib. Düşünürəm ki, bu, lazımlı və əhəmiyyətlidir və bu islahatlara real ehtiyac var”.

V.Rəhimzadə deyib ki, islahatlar zamanı vacib şərtlərdən biri odur ki, işçilər əziyyət çəkməsinlər: “Burada əsas məsələ odur ki, aparılan islahatlar zamanı işçilər kənarda qalmasın, islahatlara uyğun olaraq daha da effektiv və məhsuldar iş ortaya qoya bilsinlər. İslahatlar zərurətdir, günümüzün reallığıdır və qaçılmazdır”.

“İki sahil” qəzetinin baş redaktoru hesab edir ki, “Azəriqaz”da üç departamentin birləşdirilməsi qurumun vahid idarəçilik sistemi ilə idarə olunmasında mühüm rol oynaya biləcək bir amildir: “Düşünürəm ki, zaman keçdikcə, beş ildən sonra bugünkü islahatlar gələcəkdə günün tələblərinə uyğun olaraq daha da başqa formada həyata keçirilə bilər. Hesab edirəm ki, bu, işin effektivliyini, keyfiyyətini artırmaqla yanaşı, operativliyin, çevikliyin, idarə etmədə vahid idarəçilik mexanizminin formalaşmasına dəstək olacaq. Bu üç departamentin bir-birinə yaxın, bağlı və əlaqəli qurumlar olması, vahid bir mərkəzdən idarə olunması da çevikliyin təminatında mühüm rol oynayacaq”.

V.Rəhimzadə bildirdi ki, islahatlar zaman keçdikcə hər dövrün tələblərinə uyğun olaraq həyata keçirilməlidir: “Bu islahatlar ölkəmizin müxtəlif sahələrində özünü əks etdirir. Düşünürəm ki, “Azəriqaz”da da aparılan islahatlar ümumi işin xeyrinə aparılmış islahatlardır və əhaliyə xidmətin yüksək səviyyədə yerinə yetirilməsi ilə yanaşı, eyni zamanda, operativliyin, çevikliyin təminatında mühüm rol oynayacaq. Hesab edirəm ki, zamanın, dövrün tələblərinə, cəmiyyətin arzu və istəyinə, tələblərinə uyğun olaraq bu islahatlar davamlı şəkildə həyata keçiriləcək. Mən bu islahatları dəstəkləyirəm və ən başlıcası odur ki, bu islahatlar aparılan zaman işçilərin məhsuldarlığı artırılsın, onların işə yanaşması dəyişsin və keyfiyyətli iş görməklə bağlı münasibətlərini ortaya qoysunlar”.

V.Rəhimzadə sonda qeyd edib ki, son zamanlar Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) sistemində kifayət qədər belə islahatlar həyata keçirilib: “Hesab edirəm ki, son illər SOCAR-ın bütün sahələrində islahatlar reallaşdırılıb. SOCAR-ın həyata keçirdiyi islahatlar da vacib şərtlərdən biridir. Bütün bunlar SOCAR-ın nüfuzlu bir qurum olaraq təkcə ölkə iqtisadiyyatında deyil, həm də dünya iqtisadiyyatında kifayət qədər böyük rol oynadığının göstəricisidir. Bu səbəbdən də SOCAR son illər Azərbaycanda və dünyada çox böyük layihələrə müəlliflik edir. Bu da Azərbaycan iqtisadiyyatının uğurlu inkişafının yüksək səviyyədə göstəricisidir”.

Xatırladaq ki, “Azəriqaz” İstehsalat Birliyi ölkə başçısının qarşıya qoyduğu tapşırıqları qüsursuz yerinə yetirmək üçün strukturunda müəyyən dəyişiklik edib. “Azəriqaz”ın baş direktoru Ruslan Əliyevin imzaladığı əmrlə struktur islahatı aparılıb.

Belə ki, Bakı Regional Qazın Satışı Departamenti, Bakı Regional Qaz Ölçü Qurğularına Xidmət Departamenti və Qaz kəmərlərinə və cihazlarına texniki xidmət sahəsi birləşdirilməklə onların bazasında Bakı Regional Qazın Satışı Depatamenti yenidən formalaşdırılıb. Bu məqsədlə Birliyin idarəetmə aparatına daxil olan 100-ə yaxın aşağı dərəcəli işçilərin ştatı bağlanaraq yeni Departamentə köçürüləcəkdir. Lakin onların, xüsusən də mühəndis heyətinin struktur islahatları zamanı əməkhaqqında hər hansı azalma baş verməyəcək, əksinə, bəzi əməkdaşların məvaciblərində artım qeydə alınacaq. Ümumilikdə isə struktur islahatları işçilərin ixtisarına səbəb olmayacaq.

Qurumdan bildirilib ki, aparılan struktur islahatı, ilk növbədə, abonentlərin rahatlığı və məmnuniyyəti üçün həyata keçirilir. Belə ki, bugünədək abonentlər haqlı olaraq bəzi xidmətlərdən istifadə zamanı narazılıqlarını bildirirdilər. Artıq yeni struktur islahatı hər bir abonentə bir neçə xidməti bir yerdə və bir məsul şəxsdən qəbul etməyə imkan verəcək.

# “Vizual məlumat bazasının yaradılması yaşıllıqların qorunması işində müsbət başlanğıcdır”

Elektron və vizual məlumat bazasının yaradılması yaşıllıqların qorunmasında güclü nəzarət mexanizmi deməkdir və bu işdə müsbət bir başlanğıcdır. AZƏRTAC xəbər verir ki, bu sözləri Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova fevralın 21-də keçirilən mətbuat konfransında deyib.

Mətbuat katibi, həmçinin deyib: “Etiraf edək ki, yenə də istər paytaxtda, istərsə də regionlarda ağac kəsintisi faktları olur. Sevindirici haldır ki, ictimaiyyət nümayəndələri yaşıllıqların, ətraf mühitin qorunmasına biganə yanaşmır, bu məsələlərdə əsl vətəndaş mövqeyi nümayiş etdirir, nazirliyin işinə dəstək göstərərək ekoloji pozuntularla bağlı məlumatları dərhal bizə çatdırır. Azərbaycanda iqtisadiyyat sürətlə inkişaf edir, müxtəlif infrastruktur layihələri icra olunur. Təbiidir ki, bu işlərin görülməsi zamanı yaşıllıqların köçürülməsi və götürülməsinə də zərurət yaranır.”

# Azərbaycanda keçirilən bütün seçkilər mətbuat üçün açıqdır və KİV-lər bu prosesdə önəmli rola malikdir



## *“Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyevin yap.org.az-a müsahibəsi*

***- Bəhruz müəllim, məlum olduğu kimi fevralın 9-da ölkəmizdə parlament seçkiləri keçirildi. Parlament seçkiləri hazırda da gündəmin əsas mövzularından biri olaraq qalır. Bu faktı hansı amillərlə izah edə bilərsiniz?***

- İlk növbədə onu qeyd edim ki, Azərbaycanda parlament seçkilərinin keçirilməsi və yeni parlamentin formalaşdırılması son illərdə daha intensiv xarakter almış islahatların tərkib hissəsi və bu islahatları bütövləşdirən vacib faktordur. İcra hakimiyyəti sistemində, sosial-iqtisadi sahədə aparılan struktur və kadr islahatlarının qanun yaradıcılığı sistemini və onun ən aparıcı institutu olan Milli Məclisi də əhatə etməsi mövcud reallığın obyektiv tələbi idi. Azərbaycanda parlament islahatı ölkənin indiki mərhələdə üzləşdiyi çağırışlara ən optimal cavab vermək baxımından misilsiz addım idi. Düşünürəm ki, parlament seçkiləri Azərbaycan Konstitusiyası və Seçki Məcəlləsinə uyğun keçirildi.

Azərbaycan Milli Məclisinə seçkilərin hələ də gündəmdə olması isə təbii prosesdir. Çünki, parlament seçkiləri təkcə ölkə daxilində deyil, həm də beynəlxalq təşkilatların diqqətində olan siyasi hadisədir. Beynəlxalq ictimaiyyətin gözü Azərbaycana yönəlmişdi. Bunu ölkəmizə gələn beynəlxalq müşahidəçilərin həm sayında, həm də seçki ilə bağlı fikirlərində aydın şəkildə görmək mümkündür. Xatırladım ki, Milli Məclisə seçkilərlə əlaqədar 883 beynəlxalq müşahidəçi akkreditasiyadan keçmişdi ki, onlar 59 beynəlxalq təşkilatı və 58 ölkəni təmsil edirdilər. Beynəlxalq müşahidəçilərin sayı və geniş coğrafiyanı əhatə etməsi dünya ictimaiyyətinin Azərbaycanda keçirilən seçki prosesinə yüksək diqqət ayırdığını göstərir.

Bir sözlə ifadə etsək, seçki prosesi cəmiyyətimizdə həyata keçirilən bu islahatlar ölkəmizin inkişafının daha da sürətləndirilməsinə, insanların rifah halının daha da yaxşılaşdırılmasına xidmət etməklə yanaşı, həm də beynəlxalq aləmə təqdim edilən demokratiya nümunəsi, şəffaflıq etalondur. Hesab edirəm ki, Azərbaycanda həyata keçirilən islahatlar prosesinin tərkib hissəsi olan 9 fevral seçkiləri xalqın iradəsini əks etdirməklə yanaşı, qarşıda duran ən vacib vəzifənin -Vətənimizin daha da güclənməsinə və çiçəklənməsinə, eyni zamanda, hər bir vətəndaşımızın daha yaxşı yaşamasına istiqamətlənmiş vəzifənin yüksək səviyyədə yerinə yetirilməsinə öz güclü töhfəsini verəcək.

***- Seçki kampaniyasının, eləcə də seçki günü səsvermə prosesinin işıqlandırılması üçün kütləvi informasiya vasitələrinə yaradılan şəraiti necə qiymətləndirirsiniz?***

- Ümumiyyətlə, seçkilərin azad və demokratik keçirilməsində mətbuat mühüm rol oynayır. Beynəlxalq təşkilatların seçkilərin işıqlandırılması ilə bağlı üzv ölkələrə verdiyi tövsiyələrdən biri məhz medianın rolu ilə bağlıdır. İstər seçkilərdən əvvəl, istər seçkilər zamanı, istərsə də seçkilərdən sonra media bu prosesdə fəal iştirak etməlidir. O ki qaldı, Azərbaycanda seçki prosesi KİV-lərə yaradılan şəraitə, tam əminliklə deyə bilərik ki, ölkəmizdə bütün seçki proseslərində mətbuat fəal iştirak edir. Bu da Azərbaycan dövlətinin şəffaf, demokratik seçkilərin keçirilməsi üçün ortaya qoyduğu siyasi iradənin ən bariz nümunələrindən biridir.

Azərbaycanda keçirilən bütün seçkilər mətbuat üçün açıqdır və KİV-lər bu prosesdə önəmli rola malikdir. Bildiyiniz kimi Mərkəzi Seçki Komissiyası mətbuatla birgə işləməyə hər zaman xüsusi diqqət göstərir. Seçki prosesini təkcə yerli mətbuat deyil, eləcə də beynəlxalq KİV nümayəndələrinin işıqlandırılması üçün eyni və hərtərəfli şərait yaradılır. Məhz bunun nəticəsi idi ki, parlament seçkiləri 47 ölkəni təmsil edən 132 beynəlxalq KİV-in 199 təmsilçisi tərəfindən işıqlandırılıb. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, parlament seçkiləri Azərbaycanda seçki təcrübəsinin və media ənənələrinin inkişafına öz töhfəsi ilə yadda qaldı.

***- Bəzi KİV-lərdə, eləcə də sosial şəbəkələrdə Azərbaycanda keçirilən seçkilərlə bağlı mənfi rəy formalaşdırılmağa çalışılır, belə demək mümkünsə, qara piar aparılır. Bu barədə nə deyə blərsiniz?***

- Azərbaycanda keçirilən parlament seçkiləri xalqın iradəsini ifadə edib. Həm aparılan sənədləşmə, həm təşviqat və eyni zamanda seçki prosesinin özü kifayət qədər demokratik dəyərlərə əsaslanmış, dünya standartlarına cavab verən seçki keçirildiyini göstərib. Eyni zamanda, bu mexanizmi həyata keçirən qurumun kifayət qədər şəffaf fəaliyyətini diqqətə çatdırıb. Bu tək bizim yox, bütün beynəlxalq təşkilatların, hətta ATƏT-in Parlament Assambleyası, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu, eləcə də Avropa Şurası da seçkilərin neqativ tərəfləri ilə bağlı öz tövsiyyələrini versə də, birgə rəylərinin əsas hissəsi pozitiv elementlərə söykənib.

Beynəlxalq təşkilatlarda və digər dövlətlərin parlamentlərindən gələn müşahidə missiyaları da sözün əsl mənasında Azərbaycanda keçirilən seçkilərin tam şəkildə xalqın marağını ifadə etdiyini öz rəylərində göstərərək dilə gətiriblər. Bəzi nöqsanlar bütün dünyada keçirilən seçkilərdə olur. Heç bir ölkədə kamil, ideal seçki yoxdur. Çünki orada insan faktoru var. Harada ki, aparılan iş insan amilinə söykənir orada hər hansı çatışmazlıq, neqativ hal, texniki problem olmalıdır. Ona görə ki, seçilən də, seçən də, seçki prosesini keçirən də insandır və insanların hər biri eyni səviyyədə savadlı, öz hüquqlarını və seçki hüquqlarını bilən deyil. Məhz bütün bunlara görə də, bəzi məqamlarda texniki qüsurların yaranması qaçılmazdır. Həmin qüsurlar əgər seçkinin mahiyyətinə, ümumi ruhuna və seçkinin nəticələrinə əngəl törətmirsə, bu cür qüsurların olması problem təşkil etmir.

Ölkəmizdə kifayət qədər mükəmməl seçki keçirilib, qüsurlara gəldikdə isə bu qüsurlar cənab Prezident səviyyəsində dilə gətirilib və qeyd olunub ki, bu qüsurlarla bağlı araşdırmalar aparılmalıdır. Mərkəzi Seçki Komissiyasının da məhz missiyalarından biri də qüsurları araşdırmaq, qüsurların aradan qaldırılması və

günakarların qanunvericiliyə əsasən cəzalandırılmasından ibarətdir. Bütün bu hallar nümunəvi hallardır, yalnız və yalnız təqdir olunmalıdır. Bəzi sifariş yerinə yetirən qruplaşmalar isə əvvəlcədən də seçkidən sonra hansı addımları atacaqlarını planlayıblar. Bu nə xalqın, nə namizədin, nə də namizədin tərəfdarlarının fikiridir. Bütün bunlar xaricdən gələn sifarişləri yerinə yetirən missionerlərin fikiridir. Bu addımlar Azərbaycan xalqının iradəsinə zidd addımlardır və xalq heç bir zaman siyasi müstəvini digər müstəvilərə çevirib manipulyasiya edərək dövlətin və xalqın əleyhinə istifadə etmək istəyən qüvvələrə icazə verməyəcək.

***- Sizcə, belə halların qarşısının alınması üçün hansı addımlar atılmalıdır?***

- Ümumiyyətlə, seçki prosesində ən vacib elementlərdən biri rəqiblərin bir-birinə olan münasibətinin sağlam rəqabət müstəvisində formalaşmasıdır. Cəmiyyət seçki mədəniyyəti göstərək öz namizədini seçirsə, o zaman məğlub olan namizəd də qalibin əlini sıxmaq mədəniyyətini özündə tapmalıdır. Seçki siyasi müstəvidə mübarizə predmeti ola bilər, bu proses şəxsi rəqabət və ya dövlət əleyhinə kampaniya aparmaq səviyyəsinə gətirilməməlidir. Əgər biz cəmiyyətdə sağlam rəqabət aparmaq mədəniyyətini formalaşdıra bilsək, o zaman bu bizim və cəmiyyətimizin qələbəsi olacaq. Biz beynimizi, siyasi şürumuzu inkişaf etdirməklə proseslərə baxış tərzimizi dəyişə bilərik. Təbii ki bu təkcə seçicilərə deyil, həm də namizədlərə aiddir. Bildiyiniz kimi, son parlament seçkilərində bir mandat uğrunda 10-larla namizəd mübarizə apardı. Təbii ki, bu, ölkədə onlar üçün yaradılan ədalətli fürsət nəticəsində mümkün olmuşdu. Belə olan halda, namizədlər əvvəlcədən bilirdilər ki, mübarizədə yalnız 1 nəfər qalib gələcək və digərləri isə məğlub olacaq. Bu baxımdan seçkidən sonra bu kimi məsələləri müzakirə predmetinə çevirmək əvəzinə özümüzdə seçki məğlubiyyətini həzm etmək mədəniyyətini formalaşdırmalıyıq.

Kiçik nöqsanları böyüdərək, digər namizədlərə və ya dövlətə qarşı kampaniya aparmaq yol verilməzdir. Bəzi namizədlər dövlət əleyhinə yönələn kampaniyalara getməməli, ölkənin inkişafını gözü götürməyən kənar qrupların bundan bəhrələnməsinə imkan verməmələdirlər. Haqlı narazılıqlarla bağlı məsələlər qeyd etdiyimiz kimi müvafiq orqan tərəfindən araşdırılır və qanunvericiliyi pozan şəxslər cəzalandırılır. Artıq 4 dəçki dairəsi, eləcə də onlarla məntəqənin nəticələri ləğv olunub. Müvafiq dairələrin nəticələrinin ləğv olunması obyektivliyin, demokratiyanın göstəricisidir. Bütün bunlar nümunəvi hallardır, yalnız və yalnız təqdir olunmalıdır.

***“Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya dövlət səfəri əlamətdar hadisədir və Bakı ilə Roma arasında münasibətlərin inkişafı və möhkəmlənməsinə ciddi təkan verəcək”. Bunu Trend-ə italiyalı siyasətçi və jurnalist Culyetto Kyeza deyib.***

# Culyetto Kyeza: “Azərbaycan Prezidentinin İtaliyaya səfəri Bakı və Roma üçün əlamətdar hadisədir”




Onun sözlərinə görə, Azərbaycan liderinin İtaliyaya səfəri ikitərəfli münasibətlərin inkişafında yeni səhifə açacaq: “Azərbaycanla İtaliya arasında əməkdaşlıq son illərdə dinamik inkişaf edir ki, bu da dövlətlərin qarşılıqlı maraqlarını göstərir. İtaliya Azərbaycanın ticarət tərəfdaşları arasında birinci yeri tutur. Azərbaycan nefti böyük həcmdə İtaliyaya nəql olunur, ölkəmizin neft idxalında Azərbaycan birinci yeri tutur, infrastruktur, tikinti, nəqliyyat, kənd təsərrüfatı, eləcə də sənaye istehsalında əməkdaşlıq inkişaf edir. Azərbaycanla İtaliya arasında bir neçə il əvvəl imzalanmış strateji tərəfdaşlıq bəyannaməsi əməkdaşlığa mühüm təkan verdi və ikitərəfli münasibətləri daha yüksək səviyyəyə çıxardı. Bunun nəticəsi olaraq ildən-ilə humanitar əməkdaşlıq genişlənir, mədəni əlaqələr inkişaf edir. Hesab edirəm ki, enerji sahəsində ikitərəfli əlaqələr “Cənub Qaz Dəhlizi” layihəsinin tam reallaşması ilə daha da intensivləşəcək”.

C.Kyeza əlavə edib ki, Azərbaycan regional əməkdaşlığın və təhlükəsizliyin təmin olunmasında aktiv rol oynayır və bu da dövlətin düşünülmüş xarici strategiyanın göstəricisidir.



Səs qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS QƏZETİ

Qoy ədalət zəfər çalsın!

# “Səs” qəzetinin 6000-ci nömrəsi işıq üzü gördü

***Müstəqil Azərbaycanın demokratik inkişaf yolunda müstəsna xidmətləri olan, yarandığı zamandan xalqın səsini səsində birləşdirərək, dünyaya Azərbaycanın səsini çatdıran “Səs” qəzetinin artıq 6000-ci nömrəsi işıq üzü gördü. Çap olunmağa başladığı ilk gündən elə ölkənin həyatında tanınan, Azərbaycan həqiqətlərinin xalqa çatdırılmasında obyektivliyi ilə seçilən “Səs” bir mətbu orqan kimi hər zaman oxucu diqqətində olub. Bu mətbu orqan ədalətə, haqqa səslədi milyonlarla insanları. Təlatümlü zamanda xalqın səsini ucaltdı. Müstəqilliyə gedən yolda, “Qoy ədalət zəfər çalsın” prinsipini əsas götürərək qısa zaman məsafəsində Azərbaycanda bu qələbənin təntənəsini səhifələrində dərc etdirdi. Öz çoxminli oxucularının ümidlərini doğrultdu. Bu gün “Səs” qəzeti mətbuatımızın, azad sözün inkişafına öz mühüm töhfəsini verməkdədir. Məqalələri, analitik və təhlil yazıları ilə insanların məlumatlandırılması, maarifləndirilməsi kimi mühüm missiyanı uğurla həyata keçirir. Təsis edildiyi gündən bu günədək “Səs” qəzetinə ən yüksək qiyməti də elə, məhz “Səs qəzeti mənim üçün ən əziz qəzetdir”, - deyən Ümummilli Liderimiz Heydər Əliyev verib.***

İlk nömrəsindən bu günə qədər tutduğu yolu davam etdirərək, amalının müdafiəçisi tək zamanın səsini bəyan edib. Azərbaycanın 29 illik tarixi səhifələrinə həkk olunub. “Səs” ictimai-siyasi qəzeti yaşadığı zamanın hesabatında qürurla, dəyanətlə dayanıb çağdaş dünyamıza həqiqətləri çatdırıb. 29 ildə saxta tarixdən deyil, zamanın həqiqətlərindən, burulğanlı, təlatümlü, mübarizəli, mücadilə ilə dolu bir dövründən - müstəqilliyimizdən söz açıb. Zamanımız üçün fəxarətlə səhifələdiyimiz səhifələrdə milli düşüncə, milli qeyrət, heysiyyət, qəhrəmanlıq, azadlıq kimi məfhumlarla qarşılaşırıq. Milli mətbuatımızda çəkisi, yeri olan “Səs” qəzetinin çağdaş dünyamızın aynası və tərəzisidir.

Tarixə səyahət edərək bildirək ki, “Səs” qəzetinin yaranması 1990-cı illərin hadisələri ilə - Azərbaycanda milli-azadlıq hərəkatının başlaması ilə bağlıdır. Həmin illərdə Azərbaycanda yaşanılan ictimai-siyasi böhran, Ermənistanın ölkəmizə qarşı işğalçılıq və soyqırımı siyasəti, olduqca ağır sosial-iqtisadi durum, insanların üzləşdikləri çətinlikləri qəzet səhifələrində işıqlandırıldı. Gerçəklik qəzetin səhifələrinə yol açdı. Real mənzərəni geniş ictimaiyyətə çatdıran yeganə mətbu orqan “Səs” qəzeti idi. “Səs” qəzeti o zaman Azərbaycanda daha çox oxunan, əldən-ələ gəzən mətbu orqana çevrilmişdir. “Səs” üçün yaşanılan illər hamar olmayıb. Elə ilk addımından təzyiqlə üz-üzə qalıb, sonralar qəzetə dəfələrlə hücumlar edilib. Lakin bu hərəkətlər vətəni sevən, həqiqətən, Vətən keşiyində duran qəzetin fədakar kollektivini haqq-ədalət yolundan, mil-li mücadilədən çəkindirməyib.

Ümummilli Liderimiz Heydər Əliyevin çıxışlarını, ideyalarını təbliğ etməkdə vuruş meydanına çevrilən qəzet geri çəkilmədi. Bu prinsipiallıq olmasa idi, 1992-ci ilin oktyabrında ölkə ziyalılarının xalqın iradəsini ifadə edən Ümummilli Lider Heydər Əliyevə ünvanlanan müraciəti “Səs” qəzetində dərc olunmazdı. Ulu Öndərimiz, əslində, xalqın çağırışı olan bu müraciətə biganə qalmadı və bu cavab da “Səs” qəzetində yer aldı. Ümummilli Lider hakimiyyətə gəldikdən sonra “Səs” qəzetini özü üçün doğma qəzet adlandırması da, məhz bu mübarizliyə verilən qiyməti idi.

1991-ci ilin 11 yanvar tarixində ilk sayı işıq görən qəzet elə həmin zamandan bu günə qədər əqidə və prinsipini rəhbər tutaraq, dövlətimizin qarşısında duran çətin sınaqları dəf etmək üçün silahlanıb. Azərbaycanın müstəqilliyinin yaşıdı olan qəzet bu çətin dövrdə azadlıq istiqlalçısı kimi tarixi zamanla bərabər addımladı, şərəfli bir yola körpü saldı və fəaliyyəti dövründə xalqın səvimli mətbuat orqanına çevrildi. Azərbaycan dövlətçiliyinin, Ulu Öndər Heydər Əliyev ideyalarının yaşadılması, təbliği, Azərbaycana xidmət idi xalqda bu sevgini oyadan.

Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın çağırışı ilə hakimiyyətə qayıdışından sonrakı dövrdə isə Azərbaycan mətbuatının inkişafında tamamilə yeni mərhələ başlandı. Azərbaycanda söz və mətbuat azadlığının, müstəqil mətbuatın əsasını qoymuş lider kimi böyük ehtiramla anılır. Həmin dövrdən respublikada mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması “Səs”in vətəndaş cəmiyyəti quruculuğunda rolunu daha da fəallaşdırdı. “Səs” mövcud proseslərdən kənarda qalmadı.

“Səs” qəzetinin keçdiyi tarixi yolu, onun fəaliyyətini bütün hallarda Yeni Azərbaycan Partiyasının fəaliyyətindən ayrı təsəvvür etmək mümkün deyil. YAP-ın yarandığı ilk illərdə “Səs” qəzeti, bilavasitə partiyanın mətbu orqanı kimi fəaliyyət göstərib, onun fəal təbliğatı ilə məşğul olub, məram və məqsədlərini ardıcıl, məqsədyönlü, məzmunlu və uğurlu şəkildə təbliğ edib. “Səs” qəzeti bu gün də bu şərəfli missiyanın daşıyıcısıdır. Belə ki, YAP-ın ideyalarının ən fəal təbliğatçısı kimi çıxış edir. Partiyanın fəaliyyətinin təbliğində və işıqlandırılmasında qəzetin özünəməxsus rolu var. YAP-ın mövqeyini, siyasi kursunu müdafiə edən qəzetlər sırasında “Səs” qəzeti öz ardıcıllığı, mübarizliyi və məqsədyönlülüyü ilə seçilir. “Səs”in yolu Azərbaycan mətbuatı üçün nümunəvi məktəbdir. Bu gün təvazökarlıqdan uzaq olsa da, bildirək ki, “Səs” qəzetinin milli mətbuatımızda özünəməxsus yeri var.

“Səs” bu gün Azərbaycan Respublikasının Prezidenti, YAP-ın Sədri İlham Əliyevin siyasi xəttini, fəaliyyətini çox fəal, qətiyyətli şəkildə müdafiə edir. Qəzet ölkədə və dünyada baş verən hadisələri, insanların fikirlərini, əldə olunan uğurları və problemləri səhifələrində işıqlandırır. Obyektiv, peşəkar qələm cəmiyyətin maraqlarına, vətəndaş cəmiyyətinin inkişafına xidmət edir. Bu da öz ədalətli mövqeyində dönməz olan “Səs”in ictimai-siyasi qəzet kimi nüfuzunu, populyarlığını daha da artırır və qəzetin oxucu auditoriyasını bir qədər də genişləndirir.

Ulu Öndərimiz Heydər Əliyevin siyasi kursunun davamçısı Prezident İlham Əliyevin Azərbaycanın inkişafı və çiçəklənməsi, xalqın rifahının yüksəlməsi yolunda gördüyü möhtəşəm işlərin işıqlandırılması və əhaliyə çatdırılmasında “Səs” qəzeti öz yolunu davam etdirir. Bu gün dövlətə, dövlətçilik ənənələrinə sadiq qalan “Səs” qəzeti bir sıra mətbu orqanlar kimi dövlət qayğısı ilə əhatə olunub. “Səs” qəzeti bu gün də dövlətə, YAP-ın siyasi kursuna, daşıdığı dəyərlərə sadiqdir və daim bu amal uğrunda çalışır. Zamanla ayaqlaşan qəzet dövrün tələblərinə cavab verir, yenilənir, müasir texnologiyalara yiyələnir. Bu gün qəzetin bazasında “Səs” İnformasiya Agentliyi və SəsTV fəaliyyət göstərir.

Mətbu orqan hər zaman olduğu kimi, heç şübhəsiz ki, bundan sonrakı dövrdə də öz missiyasını yerinə yetirəcək. Sağlam əqidə, milli özünüdərk ruhunda köklənmiş insanları ətrafında birləşdirən “Səs” qəzeti Ümummilli Lider Heydər Əliyevin ideyalarını qətiyyətlə təbliğ edib, müasir Azərbaycanın inkişafından, onun müasirləşməsindən, əhalinin sosial rifahının yüksəlməsindən söz açır. Məhz bunun nəticəsidir ki, qəzetin oxucularının sayı gün-gündən artır. Sosial şəbəkələrdə on minlərlə izləyicisi var.

Bəli, “Səs” qəzeti müstəqil mətbuat tariximizdə özünəməxsus yeri, dəst-xətti, eləcə də, şərəfli tarixçəsi olan mətbuat orqanıdır. Azərbaycan cəmiyyətinə, dövlətçiliyinə sədaqət amalıdır ki, şərəfli yolunda neçə-neçə onillikləri yaşayacaq.

“Səs” qəzetinin 6000-ci nömrəsinin işıq üzü görməsində əməyi olan kollektivin hər bir üzvünü təbrik edir və onlara dövlətçilik və milli maraqlar uğrunda yaradıcılıq uğurları arzulayırıq. Qoy həmişə qələmimiz iti, sözümüz kəsərli olsun.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İtaliya-Azərbaycan Birgə Bəyannaməsi nə vəd edir?




***“Bildiyiniz kimi, Prezident İlham Əliyev İtaliyaya dövlət səfəri edib. Bu cür səfərlər özü-üzlüyündə iki ölkə arasında əlaqələrin əhəmiyyətini özündə təzahür edir”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Rasim Musabəyov deyib.***

O bildirib ki, Azərbaycan İtaliya üçün əhəmiyyətli tərəfdaşdır və bu səfər ölkəmizin İtaliya üçün nə qədər önəmli olduğunu göstərmiş oldu: “Bununla yanaşı İtaliya Azərbaycan üçün dünya miqyasında bir nömrəli tərəfdaşdır. 2019-cu ildə iki ölkə arasında ticarət dövriyyəsi 6 milyard dollara çatıb”.

Azərbaycan Prezidenti İlham Əliyevin iki il bundan öncə İtaliya Prezidentini qəbul etdiyini xatırladan deputat söyləyib ki, iki ölkə arasında yüksək səviyyəli dialoq davamlı xarakter daşıyır: “Ötən ilin payızında Azərbaycana İtaliyanın rəsmi ikinci şəxsi hesab olunan Parlamentin sədri Azərbaycana, Azərbaycanın Birinci-vitse-prezidenti Mehriban Əliyeva bir il bundan öncə İtaliyaya səfər etmişdi”.

R. Musabəyov söyləyib ki, İtaliya iqtisadi göstəricilərinə görə, Avropa Birliyində üçüncü mövqedə dayanır: “Bu gün İtaliya öz istədiyi ölkələrlə əlaqə qurub saxlamağı bacarır”.

# YAP Səbail rayon təşkilatının yaranmasının 27-ci ildönümü qeyd olunub

***Dünən YAP Səbail rayon təşkilatının yaranmasının 27-ci ildönümü münasibətilə rayon təşkilatının qərargahında rayon şurası və idarə heyətinin geniş yığıncağı keçirilib. Rayon şurası və idarə heyətinin üzvləri, rayonun tanınmış ictimaiyyət nümayəndələri, ziyalılar, partiya veteranları, "91"lərin nümayəndələri, partiya fəalları və gənclərin iştirak etdiyi tədbirin iştirakçıları əvvəlcə müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu Öndər Heydər Əliyevin və ötən dövr ərzində dünyasını dəyişmiş partiya üzvlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***



Tədbirdə YAP Səbail rayon təşkilatının sədri, iqtisad elmləri doktoru, professor Şəmsəddin Hacıyev çıxış edərək Yeni Azərbaycan Partiyasının yaranma tarixi, ötən dövr ərzində keçdiyi çətin, eyni zamanda şərəfli inkişaf yolundan bəhs edib. Yeni Azərbaycan Partiyasının təsis edilməsi Azərbaycanın müstəqillik tarixində və ölkəmizin ictimai-siyasi həyatında çox mühüm əhəmiyyət kəsb edən tarixi hadisə kimi qiymətləndirən rayon təşkilatının sədri 1990-cı illərin əvvəllərində ölkəmizin yenicə əldə etdiyi müstəqilliyini itirmək və məhv olmaq təhlükəsi yarandığı bir zamanda xalqımızın böyük əksəriyyəti - Azərbaycanın 91 nəfər vətənpərvər ziyalısının 1992-ci ilin oktyabr 16-da Ulu Öndər Heydər Əliyevə tarixi müraciəti oldu: "Bu müraciətə cavab olaraq, Dahi Öndər Heydər Əliyev Azərbaycanın düçar olduğu bu ağır vəziyyətdən qurtuluşu və əsl demokratik dövlət quruculuğu sisteminin formalaşması yollarını özündə ehtiva edən proqramla çıxış etdi. Bu hadisədən bir ay sonra - 1992-ci ilin noyabr ayının 21-də 550 nəfər nümayəndənin iştirakı ilə Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyası təsis olundu. Ulu Öndər Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi ki, bu da milli dövlətçiliyimizin məhv olmaq təhlükəsindən xilasının və tənəzzüldən inkişaf yoluna qədəm qoymasının başlanğıcı oldu. YAP artıq mütəşəkkil qüvvə kimi siyasi meydanda öz fəaliyyətinə başladı və cəmi yeddi ay sonra tamamilə sivil və demokratik yolla respublikada hakimiyyətə gələrək iqtidar partiyasına çevrildi".





Yeni Azərbaycan Partiyasında ölkənin bütün regionlarını və şəhərlərini əhatə edən təşkilatlanma prosesi və Azərbaycanda yaranan ilk partiya təşkilatlarından biri olan YAP Səbail rayon təşkilatının yaranma tarixindən danışan Ş.Hacıyev rayon təşkilatının keçdiyi şərəfli inkişaf yolu, ötən 27 il ərzində görülən çoxşaxəli və genişmiqyaslı işlər haqqında məlumat verib.

Tədbirdə YAP Səbail rayon təşkilatının 2019-cu il ərzindəki fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə YAP Səbail rayon təşkilatının idarə heyətinin üzvü, "91-lər"dən Hacan Hacıyev, rayon şurasının üzvü Svetlana Bayramova və ərazi ilk partiya təşkilatlarının üzvləri Yeni Azərbaycan Partiyasının və YAP Səbail rayon təşkilatının keçdiyi şərəfli inkişaf yolundan danışıblar.

Daha sonra cari məsələlərə və rayon təşkilatına ünvanlanan müraciətlərə baxılıb, müvafiq qərarlar qəbul olunub.

Tədbirin sonunda YAP Səbail rayin "Azertrans" ərazi ilk partiya təşkilatının Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul olunan üzvlərinə üzvlük vəsiqələri təqdim olunub.

***R.KAMALQIZI***

# "Azərbaycanın Avropada tanınması üçün İtaliya mühüm bir ölkədir"

***"Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya dövlət səfəri iki ölkə arasında münasibətləri yeni tarixi mərhələyə daşımış oldu. Avropa İttifaqına üzv olan ölkələr içində İtaliya aparıcı ölkələrdən biridir. Azərbaycanın bu ölkə ilə xüsusi münasibətləri var və buna görə də təsadüfi deyil ki, Azərbaycan Prezidentinin İtaliya səfəri zamanı İtaliya Prezidenti ilə, İtaliya Nazirlər Şurasının sədri ilə, İtaliya Senatının sədri ilə görüş keçirib". Bunu SİA-ya açıqlamasında millət vəkili, siyasi ekspert, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.***

Siyasi ekspert söyləyib ki, bütövlükdə Avropa İttifaqına üzv olan ölkələr içində İtaliya Azərbaycanın ən mühüm iqtisadi tərəfdaşlarından biridir: "Qarşılıqlı ticarət dövriyyəsi 6 milyard dollardan çoxdur. İki ölkə arasında potensial imkanların olması və münasibətlərin inkişafı ilə bağlı heç bir siyasi maneənin olmaması daha mühüm perspektivlər vəd edir. İtaliya daim Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. O cümlədən İtaliya Prezidenti ilə Azərbaycan Prezidentinin son görüşündə də hər iki ölkənin bir-birinin ərazi bütövlüyünə dəstək verdiklərini bəyan etməsi, ümumi bəyannamədə ikitərəfli münasibətlərin keyfiyyətcə yeni mərhələyə qaldırılması məsələsinin qeyd olunması, bundan sonrakı mərhələdə də İtaliya-Azərbaycan münasibətlərinin daha da inkişaf etdirməklə yanaşı, həm də digər Avropa İttiqfaqına üzv olan ölkələr üçün yaxşı bir nümunə olacaq".

Ekspert bildirib ki, İtaliya bir sıra sənaye istiqamətləri üzrə Avropada lider ölkədir: "Sumqayıt Sənaye Parkı və İtaliya sirkətləri arasında xüsusi münasibətlərin olması təsadüfi deyil. Bütün bunlar da kimya sənayesi üzrə yeni istiqamətlər müəyyən edir. Sumqayıt Sənaye Parkında olan kimya müəssisələrində istehsal olunan məhsullar Azərbaycanın qeyri-neft sektorunda 14 faizlik pay yaradır ki, bu da yenə İtaliya şirkətləri ilə birgə əməkdaşlıq sayəsində mümkün olub. İtaliya-Azərbaycan münasibətlərində iqtisadi blokdan danışan zaman bir məsələni xüsusi vurğulamaq lazımdır ki, qeyri-enerji sahəsində İtaliya ilə Azərbaycan arasında təqribən 1 milyard dollara yaxın maliyyə münasibətləri və eyni zamanda Azərbaycandan kənarda yatırım üzrə təqribən 10 milyard dollar həcmində investisiya münasibətləri var".



H.Babaoğlu vurğulayıb ki, Azərbaycanın Avropada tanınması üçün İtaliya mühüm bir ölkədir və Azərbaycan Prezidentinin İtaliya səfəri zamanı 2020-ci il İtaliyada "Azərbaycan ili" elan olunması təsadüfi deyil: "Nəzərə almaq lazımdır ki, İtaliya həm də böyük turizm ölkəsidir. Milan şəhəri Avropanın bir sıra avanqrd trendlər üzrə aparıcı şəhərlərindən biridir və 2020-ci il bütövlükdə Azərbaycanın yenidən öz mədəniyyətinin, tarixinin, adət-ənənəsinin Avropaya tanıdılması hadisəsi olacaq. Azərbaycanın həyata keçirdiyi meqa layihələrlə İtaliya arasında körpülər yaranıb. Cənub Qaz Dəhlizi layihəsinin sonuncu seqmenti, yəni TAP hissəsi İtaliya ərazisində yekunlaşır və bu iki ölkə arasında yeni münasibətlər yaratmış olur. Çünki Azərbaycandan Avropaya istiqamətlənən qaz kəməri İtaliyada sona çatır və daha sonra bütün Avropaya şaxələnməsi planlaşdırılır. Bu da özlüyündə yeni iqtisadi-siyasi iqlimin formalaşmasına səbəb olacaq və həmçinin kəmər üzərində olan bütün ölkələrlə Azərbaycanın münasibətlərinə müsbət təsir göstərəcəkdir. Bütün bu məsələləri ümumiləşdirsək və bu səfər çərçivəsində imzalanan 20-yə qədər müqaviləyə nəzər salsaq görərik ki, imzalanan müqavilələrdə iqtisadi, siyasi, humanitar, hərbi sahələr üzrə mümkün əməkdaşlıqlar nəzərdə tutulur. 2020-ci ildə Azərbaycan Prezidentinin İtaliya səfəri dövlətlər arasında yeni səhifə açmaqla hər iki ölkənin maraqlarını təmin edəcək".

# Ali Rada qondarma "erməni soyqırımı" layihəsini rədd etdi



Ukrayna Ali Radası qondarma "erməni soyqırımı"na dair qanun layihəsinin müzakirəsindən imtina edib. Ali Radanın hakim "Xalqın xidmətçisi"nin deputatı Darya Volodinanın təqdim etdiyi "erməni soyqırımı qurbanlarının anılması" ilə bağlı qanun layihəsi müzakirə edilmədən geri qaytarılıb. Məlumata görə, fevralın 14-də qeydə alınan qanun layihəsinin Azərbaycan və Türkiyənin Ukraynadakı səfirliklərinin birgə səyləri nəticəsində Ali Radanın komitə iclasında belə müzakirə olunması təxirə salınıb.

# Koronavirus qonşu ölkəyə çatdı - özümüzü necə qoruyaq?

***Son günlərin ən dəhşətli bəlası olan və minlərlə insanın həyatına son qoyan yeni koronavirus infeksiyası Çində başlasa da, artıq qonşu ölkə İrana qədər gəlib çatıb. Son məlumatlara görə, Qum şəhər xəstəxanalarından birində tənəffüs problemləri ilə müalicə alan hər iki xəstənin analizləri onların koronavirusa yoluxduğunu göstərib. Hər iki xəstə həyatını itirib. Bu məlumat artıq İran rəsmiləri tərəfindən də təsdiqini tapıb. İranın Səhiyyə Nazirliyi son günlər ərzində hətta yeni koronavirus şübhəsi ilə müayinə olunan bir neçə şəxsin olduğunu da açıqlayıb. Bütün bunlat vurisun ölkəmizə gündən-günə daha da yaxınlaşdığını göstərir. Bəs görəsən Azərbaycanda bu istiqamətdə hansı işlər görülür? Özümüzü bu təhlükəli virusdan necə qorumalıyıq? SİA məsələyə aydınlıq gətirib.***






### Koronavirusun Azərbaycanda yayılma RİSKİ

Məsələ ilə bağlı açıqlama verən Azərbaycan Tibb Universitetinin dosenti, respublikanın baş infeksionisti Cəlal İsayev bildirib ki, Səhiyyə naziri tərəfindən koronavirusla bağlı imzalanan əmrə əsasən ölkəmizdə lazımi tədbirlər görülüb və bu işlər hazırda da davam etməkdədir.

Onun sözlərinə görə, amma buna baxmayaraq bütün ölkələrdə oluğu kimi virusun Azərbaycanda da yayılması riski davam edir: "Heç kim bu riskdən sığortalanmayıb. Bu xəstəlik insandan insana çox sıx təmas olan zaman keçə bilir. Bu baxımdan infeksiya səngiyənədək xəstəlik yayılan ölkələrə səfərlərin təxirə salınması tövsiyə olunur". Cəlal İsayev qeyd edib ki, virusun yayıldığı ərazilər səfər etmək mütləqdirsə, o zaman təhlükəsizlik tədbirləri gücləndirilməlidir.

### Səhiyyə Nazirliyi nə tövsiyə edir?

Səhiyyə Nazirliyinin əməkdaşı Elvin Hacıyev söyləyib ki, infeksiyaya yoluxmamaq üçün hər kəs Ümumdünya Səhiyyə Təşkilatı, Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin koronavirusla bağlı əhaliyə tövsiyələrinə əməl etməlidir: "Tövsiyələrə əsasən, özümüzü və başqalarını xəstəlikdən qorumaq üçün öskürdükdən və asqırdıqdan sonra, xəstələrə qulluq edərkən, yemək hazırlayərkən, əvvəl və sonra, yeməkdən əvvəl, tualet istifadəsindən, heyvanlar və heyvan tullantıları ilə işlədikdən sonra əllər vizual olaraq çirkli göründükdə onları axar su və sabunla yumalı, əllərimiz çirkli deyilsə, onları sabun və su ilə yuyun və ya spirt tərkibli təmizləyici (dezinfectant) istifadə etmək məqsədəuyğundur".

Onun sözlərinə görə, infeksiyaya yoluxmamaq üçün əsas vasitə xəstə insanlarla (onların gözlərinə, burnuna və ya ağzına toxunmaq) və ev, ferma və ya vəhşi heyvanlarla qorunmamış təmasdan çəkinmək, qəbul edilən qidalara xüsusi fikir verməkdir: "Çiy ət və bişmiş qidalar üçün müxtəlif doğrama lövhələrindən və bıçaqlardan istifadə etməli, xəstə və ölü heyvanlar yeyilməməlidir. Bununla yanaşı, xəstə heyvan və korlanmış ətlə təmasdan çəkinmək tövsiyə olunanlar arasındadır. Ət məhsullarını və yumurtanı tam bişirmək məsləhət görülür".












### Qida sahəsində vəziyyət necədir?

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin şöbə müdiri, respublikanın baş dövlət baytarlıq müfəttişi Qalib Əbdüləliyev açıqlamasında koronavirusla bağlı risk daşıyan məhsulların siyahısının müəyyənləşdirildiyini və həmin məhsulların diqqətdə saxlanıldığını dilə gətirib. Onun sözlərinə görə, həmin məhsulların həm daxili bazarda, həm idxal olunan vaxt təhlükəsizliyi tam nəzarətdə saxlanılır: "Amma bu günə qədər hər hansı təhlükəyə rast gəlinməyib. Bildiyiniz kimi, koronavirus infeksiyasının diaqnostikası ölkəmizdə aparıla bilir. Artıq həm avadanlıq, həm müvafiq diaqnostik dəstlər ölkəmizə gətirilib. Biz bu həftənin sonunda görülmüş işlər barədə ətraflı məlumat verəcəyik".

Şöbə müdiri əlavə edib ki, yanvarın 10-dan etibarən Ukrayna, Slovakiya, Rumıniya, Macarıstan, Polşa, Çexiya, Almaniya, Hindistan, Danimarka, Səudiyyə Ərəbistanı, Vyetnam, Çin ölkələrindən Azərbaycana quş və quşçuluq məhsullarının gətirilməsinə də qadağan olunub.

Məlumat üçün nəzərinizə çatdıraq ki, Çində koronavirusa yoluxanların sayı 74 min 576 nəfərə çatıb. Çinin Səhiyyə Nazirliyi yoluxanlardan 2118 nəfərinin dünyasını dəyişdiyini açıqlayıb. Məlumata görə, hazırda sözügedən ölkədə 56 min 303 nəfər xəstəlikdən əziyyət çəkir, onlardan 11 min 864 nəfərin vəziyyəti ağır qiymətləndirilir, 16 min 155 nəfərin isə sağaldığı bildirilir.

***Nailə Məhərrəmova***

ARAŞDIRMA

# Xocalı soyqırımı insanlığa qarşı cinayətdir

***Xocalı soyqırımı Azərbaycan tarixinə ötən əsrdə insanlıq əleyhinə törədilmiş ən dəhşətli və faciəli hadisələrdən biri kimi daxil olmuşdur.***



*COŞQUN MƏMMƏDOV*
*Azərbaycan Respublikasının Milli Məclisi Elm və Təhsil Komitəsinin eksperti*

Tarix boyu xalqımıza qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə kimi bəşəri cinayətlər törətmiş erməni şovinistlərinin Xocalıda törətdikləri hərbi cinayət, xalqımıza qarşı yürüdülən növbəti düşmənçilik siyasətinin davamı idi.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə aylarla mühasirədə saxlanılan Xocalı şəhəri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının ağır hərbi texnikası və hərbi heyətinin birbaşa dəstəyi ilə erməni silahlı qüvvələri tərəfindən yerlə-yeksan edildi, əliyalın dinc əhaliyə xüsusi amansızlıqla divan tutuldu. Hücum zamanı 25 tank, 87 zirehli döyüş maşını, 28 piyada döyüş maşını, 45 artilleriya top sistemindən istifadə edildi.

Dörd aydan artıq müddət ərzində mühasirədə saxlanılan 3 minə yaxın mülki əhali erməni zülmündən xilas olmaq üçün öz doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qaldı. Soyuq və qaranlıq gecədə çöllərə, meşələrə üz tutan Xocalı sakinləri ağlagəlməz müsibətlərlə, dözülməz əzab-əziyyətlərlə qarşılaşdılar. Çox təəssüflər olsun ki, həmin dövrdə mərkəzi hakimiyyət tərəfindən Xocalıya heç bir yardım olunmaması səbəbindən əhalinin böyük bir hissəsi quduzlaşmış erməni cəlladlarının xain hücumundan xilas ola bilmədi, nəticədə erməni zülmünün qurbanına çevrildilər.

Azğınlaşmış erməni cinayətkarları uşaq, qoca demədən insanları xüsusi amansızlıqla qətlə yetirirdilər. Mühasirədən qurtulmağa müvəffəq olmuş insanları isə meşələrdə, çöllərdə pusqu quraraq girov götürür, onlara tarixdə görünməmiş müxtəlif işgəncələr verərək vəhşicəsinə qətlə yetirirdilər.

Nəticədə, bu qanlı faciyə zamanı aralarında 63 nəfər uşaq, 106 nəfər qadın, 70 nəfər ahıl, qoca olmaqla, ümumilikdə, 613 nəfər qətlə yetirilmiş, 487 nəfər isə aldığı güllə yaralarından əlil olmuşdur. Faciə zamanı Xocalının 1275 dinc sakini girov götürülmüşdür ki, onlardan 197 nəfərinin sonrakı taleyi hələ də məlum deyildir.

Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Soyqırım zamanı qətlə yetirilənlərdən 56 nəfəri xüsusi qəddarlıqla qətlə yetirilmiş, onların başları kəsilmiş, gözləri çıxarılmış, başlarının dəriləri soyulmuş, bədən əzaları kəsilmiş, diri-diri yandırılmış, hamilə qadınların hələ dünyaya göz açmayan məsum körpələri bətinlərindən yarılaraq çıxarılmışdır.

Hesablamalara görə şəhərin işğalı nəticəsində dövlət əmlakına və mülki əhalinin şəxsi əmlakına külli miqdarda maddi ziyan dəymişdir. Xocalı faciəsinin adı indi tarixə dinc əhalinin soyqırımı olaraq daxil olmuş və hərbi cinayətlər olaraq yaddaşlardan heç vaxt silinməyən Xatın, Ruanda, Srebrenitsa və Holokost kimi faciələrlə birgə çəkilir.

Bütün dünyanın gözü önündə törədilmiş bu dəhşətli soyqırıma ilk siyasi-hüquqi qiymət isə, məhz Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə yenidən qayıdışından sonra verilmişdir. Belə ki, Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 24 fevral tarixli 791 nömrəli qərarı ilə fevralın 26-ı Xocalı soyqırımı günü olaraq elan edilmiş və bu qanlı faciə barədə beynəlxalq təşkilatlara müraciət ünvanlanmışdır.

Ulu Öndər Heydər Əliyev Xocalı soyqırımı ilə əlaqədar Azərbaycan xalqına müraciətində bu amansız kütləvi qırğının tarixi-siyasi mahiyyətini bu cür göstərmişdir: "Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir... Bu amansız və qəddar soyqırım aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı soyqırımı ilə əlaqədar xalqa ünvanladığı müraciətində, bu faciənin insanlığa qarşı ən qəddar və amansız kütləvi terror hadisələrindən biri olduğunu qeyd etmişdir.

Bu gün erməni faşistləri tərəfindən Xocalıda törədilən bəşəri cinayətin dünya ictimaiyyətinin diqqətinə çatdırılması, insanlıq əleyhinə cinayət olaraq beynəlxalq siyasi və hüquqi qiymətinin verilməsi, onun dünya birliyi tərəfindən soyqırımı aktı kimi tanınması dövlətimizin xarici siyasətinin əsas istiqamətlərindən, əsas strateji hədəflərindən biri kimi müəyyənləşdirilmişdir.

Bu məqsədlə dövlətimiz tərəfindən "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası çərçivəsində bir çox beynəlxalq təşkilatlarda və dünya ölkələrinin parlamentlərində Xocalı soyqırımını törədənlərin ifşa olunması və beynəlxalq ictimaiyyətin bu haqqda geniş məlumatlandırılması istiqamətində qətiyyətli addımlar atılmaqdadır. Bunun nəticəsidir ki, hal-hazırda Xocalı soyqırımını dünyanın 10-dan artıq ölkəsi və ABŞ-ın 21 ştatı tam və ya parlament səviyyəsində qətliam kimi tanımışdır.

Eyni zamanda, dövlət tərəfindən istər ölkəmizdə, istərsə də ölkəmizin hüdudlarından kənarda Xocalı soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə parkların salınması, abidələrin ucaldılması istiqamətində də mühüm tədbirlər həyata keçirilir.

Xalqımız isə hər il 26 fevral tarixində Xocalı soyqırımı qurbanlarının xatirəsini böyük ehtiramla yad edir, tariximizə qanla yazılmış bu faciəni törədənləri isə qınayır, onların layiqli cəzalarının verilməsini dünya birliyindən tələb edir.

Azərbaycan xalqına qarşı törədilən bu cür bəşəri cinayətlər yaddaşlardan heç zaman silinməyəcəkdir, ağrı-acıları qəlbimizdə daim yaşayacaqdır.

Allah bütün şəhidlərimizə rəhmət etsin.

# "Könüllülük vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir"



***"2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan edilməsi insanların sülhsevərlik, xeyirxahlıq kimi ümumbəşəri dəyərlər ətrafında birləşməsinə, Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclərin dövlətə, Vətənə bağlı, məsuliyyətli bir vətəndaş kimi formalaşmasına, uğurla həyata keçirilən gənclər siyasətinə yeni nəfəs verəcək". Bu fikirləri "Səs" qəzetinə açıqlamasında gənc könüllülərdən olan Aytac Ağayeva bildirib. Qeyd edib ki, Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır.***

Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatı olduğunu bildirən A.Ağayeva könüllülüyün həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyi olduğunu bildirib: "Prezident İlham Əliyevin 2019-cu il dekabrın 30-da "Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında" Sərəncam imzalaması ilə ölkəmizdə gənclər siyasətinin keyfiyyətcə yeni mərhələyə daxil olması da bunun bariz ifadəsi, sözügedən sahəyə göstərilən diqqət və qayğının məntiqi nəticəsidir. Azərbaycanda gənclərə göstərilən bu etimadın, diqqət və qayğının nəticəsidir ki, hazırda Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar".

Bu gün ölkədəki yüzlərlə qeyri-hökumət və gənclər təşkilatının səmərəli fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olduğunu bildirən gənc könüllü məhz dövlətin gənclərə xüsusi dəstək göstərməsinin hər bir gəncdə özünə, öz gücünə, istedadına, potensialına inam hissini artırdığını vurğulayıb: "Bu gün Azərbaycan Prezidenti gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunmasını, onların məşğulluğunun təmin edilməsini, dövlət idarəçilik sistemində iştirakı istiqamətində kompleks tədbirlər həyata keçirilməsini əsas hədəflər kimi qarşıya qoyub".

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Amerika Paşinyanı anti-rus olduğu üçün hakimiyyətə gətirdi"




"Ermənistanın Baş naziri olmaqla yanaşı, Paşinyan da bir insandır, onun da şəxsi mövqeyi var. Bu da onun anti-rus olmasından ibarətdir. Bu addımı belə səciyyələndirmək olar". Bunu SİA-ya açıqlamasında siyasi ekspert Mübariz Əhmədoğlu Ermənistanın Baş naziri Nikol Paşinyanın şəxsi "Facebook" hesabında Xocalı Soyqırımını Rusiyanın törətdiyi ilə bağlı paylaşım etməsi, daha sonra həmin paylaşımı silməsi ilə bağlı məsələyə münasibət bildirərkən deyib.

Ekspert bildirib ki, Nikol Paşinyan materiyasına görə tamamilə anti-rusdur və bu, özünü onun atdığı hər bir addımda büruzə verir: "Paşinyanın siyasətə gəlməyi də anti-rusiyaçılıqla bağlı olub. Bu, onun jurnalist kimi fəaliyyətində də özünü büruzə verib, eyni zamanda indi bir siyasətçi kimi də fəaliyyəti anti-rusiyaçılıq üzərində qurulub. Onun fikrincə, təkcə Xocalı soyqırımını yox, ümumiyyətlə Dağlıq Qarabağ münaqişəsi də Ermənistan xalqı tərəfindən başladılmayıb, bütün bu münaqişələri Rusiya başladıb. Paşinyana görə, bu münaqişə Rusiyanın maraq dairəsindədir. İndinin özündə də Paşinyan Ermənistanın daxilində elə addımlar atır ki, onun anti-rusiyaçı olmağı özünü açıq şəkildə büruzə verir".

Politoloq Rusiyada tanınmış bir erməni memarın Ermənistana gətirilməsi və daha sonra rüşvət timsalında həbs edilməsini də bu məsələ ilə bağlı misal çəkib: "Paşinyan özü Rusiyada tanınmış bir erməni memarı ölkəyə gətirdi və onu Ermənistanın Şəhərsalma Komitəsinə rəhbər təyin etdi. Daha sonra 6-7 ay çəkməmiş onu güya rüşvət alma bəhanəsi ilə həbs etdi. Məqsəd isə memarın Rusiyada yaxşı tanınması və orada geniş fəaliyyət göstərməsi idi. Paşinyanın antirus olduğunu nümayiş etdirən bu kimi çox faktlar var. Elə məhz anti-rus olduğu üçün Amerika Paşinyanı hakimiyyətə gətirdi".

Mübariz Əhmədoğlu əlavə edib ki, Paşinyan üçün bu, bir vərdişdir, öz hesabında statusu silməsi isə Rusiyadan çəkinməsidir, Paşinyan Rusiyanın sonrakı qəzəbindən çəkinib, lakin reallıqda onun mövqeyi hər şeydə Rusiyanı günahlandırmaqdır.

## Sarqsyanı təyin etdiyi hakim mühakimə edəcək



Ermənistanın keçmiş prezidenti Serj Sarqsyanla bağlı cinayət işinə baxmalı olan hakim Vaqe Misakyan bundan imtina edə bilər. Oxu.az xəbər verir ki, V.Misakyan 2017-ci ilin noyabrında S.Sarqsyanın göstərişi ilə hakim təyin olunub.

O, məhkəmə işi ilə bağlı hər hansı bir təzyiqlə üzləşmədiyini açıqlayıb. "Məni qorxutmayıblar və qorxutmurlar. Mən qorxan insan deyiləm", - deyə hakim bildirib.

# "Jurnalist aksiya zamanı özünü jurnalist kimi aparmalıdır"

**Mövcud faktlara və baş verənlərə əsasən demək olar ki, müxalifətin mövqeyindən çıxış edən bəzi özlərini jurnalist adlandıran şəxslər xarici qüvvələrin əlaltısı rolunda çıxış edən müxalifətin aksiyaları zamanı etirazçı kimi çıxış edir və polislə qarşıdurmalara maraq göstərirlər. Bu, jurnalistika peşə-etika qaydalarının kobud şəkildə pozulması deməkdir. Söhbət etdiyimiz müsahiblərimiz də, jurnalistlərin tərəf kimi çıxış etməsinin yolverilməz olduğunu bildirdilər.**

### Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli: "Bəzi jurnalistlər bilərəkdən təxribat xarakterli əməl edirlər"



- Jurnalistlərin aksiya zamanı davranışına xüsusi təlimatlar mövcuddur. Yəni istər beynəlxalq səviyyədə, istərsə də yerli səviyyədə Azərbaycan Mətbuat Şurası 2004-cü ildə xüsusi bir tövsiyə qəbul edib və bu tövsiyə jurnalistlərin aksiyalar zamanı necə davranmalı olduqlarını aşkar göstərir. Həmin tövsiyələrdə bildirilir ki, jurnalistlər aksiyalar zamanı "Press" yazılan xüsusi gödəkcələrdən istifadə etməlidirlər. Bu, onlara aksiya iştirakçılarından fərqləndirmək üçün imkan verir. Eyni zamanda, jurnalistlər hadisə yerində olarkən özləri ilə jurnalist vəsiqələrini götürməlidirlər. Çünki onlar aksiya iştirakçılarından fərqlənməlidirlər, təkcə geyimləri ilə deyil, həm də davranışları ilə seçilməlidirlər. Onlar müvafiq yer seçərək həmin yerdə dayanmalı və prosesi müşahidə etməlidirlər ki, bu da hüquq-mühafizə orqanlarına jurnalist ilə aksiya iştirakçıları arasında fərq qoymağa imkan yaratmalıdır. Jurnalist heç bir halda hüquq-mühafizə orqanlarının davranışlarına mane olmamalıdır, heç bir şüar səsləndirməməli, ümumiyyətlə, aksiyaya aid heç bir hərəkət etməməlidir, sadəcə olaraq, o öz vəzifəsini yerinə yetirməli və reportaj hazırlamalıdır. Təəssüf ki, bəzən jurnalistlər bilərəkdən və yaxud bilməyərəkdən bu halla bağlı xüsusi pozuntular törədirlər. Müşahidələr göstərir ki, bəzi jurnalistlər bilməyərəkdən aksiya iştirakçılarına qarışırlar və polisin onları fərqləndirməsinə mane olurlar. İkinci bir tərəfdən isə, həmin o aksiya iştirakçıları özləri bilərəkdən hansısa yolla əldə etdikləri jurnalist geyimini geyinərək aksiyalar ərazisinə daxil olur və orda özlərini aksiya iştirakçısı kimi aparırlar. Problemlə rastlaşanda da jurnalist olduqlarını bildirirlər. Ümumiyyətlə, bu cür pozuntular bizim jurnalist cameəsinə başucalığı gətirən bir hal deyil. Bununla belə, bu cür hallar Azərbaycan jurnalistlərinin fəaliyyətini kölgəyə almamalıdır. Çünki Azərbaycanda kifayət qədər peşəkar jurnalistlər var, yəni onlar peşəkardırlar harada necə davranmalı olduqlarını bilirlər. Amma bəziləri vurğuladığımız kimi bilməyərəkdən özlərini aksiya iştirakçısı kimi aparırlar, bəzilər isə bilərəkdən təxribat xarakterli əməl edirlər, buna qarşıda həm bizim jurnalistlərin özləri ayıq-sayıq davranmalıdırlar, eyni zamanda hüquq-mühafizə orqanları da onları fərqləndirməyi bacarmalıdır. Ümumilikdə bu sahədə müəyyən maarifləndirmə işləri olmalıdır, bu cür məsələlər təbliğ olunmalıdır ki, jurnalist aksiya zamanı özünü jurnalist kimi aparmalıdır və hər hansı bir formada aksiyanın gedişatına müdaxilə etməməlidir, həmçinin, hüquq-mühafizə orqanlarının fəaliyyətlərinə mane olmamalıdırlar.

### "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev: "Jurnalist adından sui-istifadə qadağan olunur və pislənilir"



- Təəssüflər olsun ki, bəzi özlərini jurnalist adlandıran şəxslər aksiyalar zamanı etirazçı kimi çıxış edir və polislə qarşıdurmalara maraq göstərirlər. Hiss olunur ki, bu istiqamətdə baş verən hadisələr getdikcə artır, yəni müəyyən qrup adamlar özlərini jurnalist hesab edərək, polislə münasibətlərdə gərginlik yaratmağa, kənardan diqqət cəlb etməyə cəhd göstərirlər. Təbii ki, jurnalist olan şəxslərin istənilən bir hadisə yerində sərbəst şəkildə iştirak etmək hüququ var, amma bunun üçün qanunda və Mətbuat Şurasının müəyyənləşdirdiyi etik normalara uyğun olaraq, jurnalistlərin zahirən formaca fərqləndirici xüsusiyyətləri olmalıdır ki, kənardan hər bir kəs asanlıqla müəyyən edə bilsin ki, jurnalist kimdir, aksiya iştirakçısı kimdir. Amma təəssüf ki, bir çox hallarda özünü jurnalist kimi qələmə verən şəxslər, əslində faktiki olaraq, bu aksiyalarda iştirakçı tərəfə çevrilirlər və bu da sonda polisin qanuni davranışları nəticəsində, xoşagəlməz hadisələrə gətirib çıxarır. Birmənalı bilmək lazımdır ki, jurnalist adından sui-istifadə həm qanunvericilikdə, həm də jurnalistlərin peşə etikası qaydalarında qəti şəkildə qadağan olunur və pislənilir. Hər bir jurnalist, jurnalist adına hörmət qoymalıdır. Yəni kimlərinsə jurnalist adından, jurnalist səlahiyyətlərindən sui-istifadə etməsi qəti şəkildə yolverilməzdir.

*GÜLYANƏ*

# Xədicə İsmayıl: "Klounluq edəcəyik"

*Bu sözlərin müəllifi sosial şəbəkələrdə qrantyeyən jurnalist və "hüquq müdafiəçisi", xarici kəşfiyyat orqanlarının agenti, ermənilərin tezisləri əsasında fəaliyyət göstərən təxribatçı Xədicə İsmayıldır. O, istər Azərbaycanın uğurlarına, istərsə də ölkədə keçirilən beynəlxalq tədbirlər və seçkilər ərəfəsi, guya Azərbaycan hökumətinə müxalifətdə olduğunu iddia etsə də, əslində, xaricdən aldığı təlimatlar əsasında birbaşa Azərbaycan dövlətinə qarşı fəaliyyət göstərir.*




Onun tərcümeyi-halından ermənilərə nökərçiliyi qırmızı xətlə keçən bu anti-Azərbaycan yönümlü X.İsmayıl,yenə də ənənəsinə sadiq qalaraq, 9 fevralda keçirilən parlament seçkiləri ilə bağlı Azərbaycan dövlətinin ünvanına əsassız ittihamlar irəli sürüb, mövcud duruma adekvat olmayan uydurma fikirlər səsləndirib. Necə deyərlər, kor tutduğunu buraxmadığı kimi, X.İsmayıl da "qatıq qaradır ki, qaradır" deyir. Onori Balzakın dediyi: "Həyat məndən fahişə düzəltdi. Mən isə həyatın özünü fahişəxanaya çevirəcəyəm" fikri lap yerində deyilib. İndi də, seçkidən sonra X.İsmayıl başlayıb sosial şəbəkələrdə çağırışlar etməyə, daha doğrusu, özünün dediyi kimi klounluq etməyə: "Sosial şəbəkələrdən hamını seçkilər ləğv olunmayanadək MSK-nın həyətindən getməmək yoxdur. Darıxdırıcı keçməyəcək. Müxtəlif şoular göstərəcəyik, ayrı-ayrı xalqların rəqslərini nümayiş etdirəcəyik, hətta klounluq da edəcəyik. Hamını MSK-nın qarşısına çağırıram".

Budur, X.İsmayıl və onun yanında olan özü kimilərin siması. "Qrant" Xədicə xaricdən pul alıb, hakimiyyətə qarşı çirkin kampaniyaların təbliğatçısı, "vicdanlı", "mədəni" polisləri isə "mədəniyyətsiz", "qabiliyyətsiz" sayır. O, sosial şəbəkələrdə onu da bildirir ki, "bu oturaq aksiyada heç olmasa polislər azacıq da olsa mədəni olsunlar". Nə qədər düşüncəsiz və kor olasan ki, reallıqları görməyəsən. Kimsəyə sirr deyil ki, Azərbaycan hökuməti hər zaman insanların hüquqlarının qorunması ilə bağlı lazımi addımları atıb. Bütün bu kimi məsələlərin gündəmdə olduğu bir vaxtda hansısa kəşfiyyatçını, təxribatçını, ajiotajçını və satqını "hüquq müdafiəçisi" kimi təqdim etməyin özü də bir xəyanətdir! Çünki o, həm də xarici təşkilatların əlində bir vasitədir. Həyata əyri gələni heç qəbir də düzəltməyəcək. Çünki həmin donqarın içində kifayət qədər xəyanətlər var. Bu xəyanətlər "carçısının" dərdi heç də müxalifət "liderləri"nin deputat seçilməsi deyil, məqsədi qrant aldığı təşkilatların istəyini yerinə yetirmək, respublikamızın ictimai-siyasi sabitlik şəraitində inkişafına mane olmaqdır. Ancaq anlamalısan ki, sizin kimilər təxribatlara, böhtanlara əl atacaqsınız, bir o qədər də xalqın nifrətini qazanacaqsınız.

### "5-ci kolon" təmsilçilərinə qarşı fikir söyləyən adamların "səviyyələri plintusdan aşağıdır"

Ən qəribəsi isə, çağırışları ilə yanaşı Xədicə "5-ci kolon" təmsilçilərinə qarşı fikir söyləyən adamların "səviyyələri plintusdan aşağıdır" fikrini də deyir. O zaman fikirləşirsən: Bəs görəsən, Xədicənin "plintusdan yuxarı olan" səviyyəsi özünü nədə göstərib? Məgər xarici xüsusi xidmət orqanlarından hazır material alıb, onu öz adından araşdırma məqaləsi kimi təqdim etmək səviyyənin yüksəkliyindən xəbər verir? Ya da məhdud arsenalını öz dövlətinə, xalqına qarşı işlətmək nə vaxtdan intellekt göstəricisi sayılır? Xarici donorlar qarşısında boynu bükük gəzən X.İsmayıl, görünür, buna görə də, dəridən-qabıqdan çıxaraq, canına "qəsd" edərək, yuxusuna "zəhər" qataraq MSK-nın qarşısında oturaq mitinq keçirməklə öz qrantlarını yenidən əldə etmək istəyir.

### Novella Cəfəroğlu: "Xədicə İsmayıl kimi işverən görməmişəm"

Hüquq müdafiəçisi Novella Cəfəroğlu jurnalist X.İsmayılın seçkilərlə belə əl-ayağa düşməsi ilə bağlı çağırışlarına və onun haqqında söylədiyi ittihamlarına cavab verərək, onu işverən adlandırıb: "Əgər Xədicə İsmayıl məni hökumətlə əməkdaşlıqda ittiham edirsə, mən də bildirirəm ki, elə Xədicə özü onun haqqında yayılan videodan sonra hakimiyyətlə işbirliyi qurub. Bəli, mən və bizim monitorinq qrupu hökumətlə əməkdaşlıq edirik. Amma onun kimi əməkdaşlıq etmirik. Mən hökumətlə dialoq aparıram. Məhbusların hüquqlarını müdafiə edirəm, mən X.İsmayıl kimi "işverənlik" və mənasız çağırışlar etmirəm. Bu gün X.İsmayıl kimi zavallıların çıxış yolu ancaq "Politşou" yaxud da klounluq etməkdir.

### Bəs bu yolun sonu varmı?

Var - uçurum, xalqın nifrəti, tənəsi! Bu gün ay cəsus, minsifətli X.İsmayıl bütün bunlardan niyə ibrət dərsi almırsan? Doğrudan da çox abırsız və mənəviyyatsızsınız. Həyasızlıq bu qədər də olmaz. Çünki sabit və dinc ölkədə hər kəs öz imkanlarına uyğun güzərana sahibdir. X.İsmayıl kimilər isə öz şəxsi ambisiyalarını düşünür. Burada deyirlər ki, "qaravaşın işi xanımın arxasınca danışmaqdır" ay satqın X.İsmayıl. Bir də anlamaq lazımdır ki, mənasız işlərlə ölkəmizi müstəqillik yolundan, güc və qüdrətli olmaqdan döndərmək mümkün deyil. Ona görə ki, Azərbaycan adlı gəminin güclü və bacarıqlı kapitanı var. Bir də, anti-Azərbaycan təbliğatlarla, erməni lobbisinin sifarişlərini yerinə yetirməklə respublikamızda təxribat törətmək, qarşıdurma yaratmaq cəhdlərinə nail ola bilməyəcəksiniz və Vətənə xəyanət əməlləriniz uzun müddət davam edə bilməz. Çünki antimilli, anti-Azərbaycan təbliğatları, erməni lobbisinin sifarişlərini yerinə yetirməklə respublikamızda təxribat törətmək, qarşıdurma yaratmaq cəhdləri, dələduzluqları və Vətənə xəyanət əməlləri uzun müddət davam edə bilməz!

*Rəfiqə HÜSEYNOVA*

# Ağdaşda heroin alverçisi saxlanılıb

Ağdaş Rayon Polis Şöbəsinin əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində uğurlu əməliyyat tədbirləri keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, keçirilmiş əməliyyat tədbirləri nəticəsində Ağdaş şəhər sakini 40 yaşlı Teymur Əzizov saxlanılıb. Axtarış zamanı ondan kiçik sellofan bükümdə satış məqsədilə saxladığı 1,3 qram heroin aşkar edilib. Davam etdirilən tədbirlərlə T.Əzizovun yaşadığı evə də baxış keçirilib. Oradan ümumilikdə 15 bükümdə heroin və qurudulmuş marixuana, həmçinin elektron tərəzi aşkarlanaraq maddi sübut kimi götürülüb.

Narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən şəhər sakini, əvvəllər dəfələrlə məhkum olunmuş Anar Süleymanov da rayon polis şöbəsi əməkdaşları tərəfindən keçirilmiş digər əməliyyat-axtarış tədbirləri ilə saxlanılıb. Şəxsi axtarış zamanı ondan bir bükümdə heroin aşkar olunub. Faktlarla bağlı təhqiqat aparılır.



# Uşaqlara qarşı zorakılıq halları

***Uşaqlara qarşı zorakılıq hallarının vaxtında aşkarlanması zərərçəkmişlərdə zorakılıq nəticəsində yaranan ölüm riskinin azalmasına, sağalma dövrünün qısalmasına, uşaq və yeniyetmələrdə xronik xəstəliklərin əmələ gəlməsi ehtimalının azalmasına imkan yaradır. Bu da onlarda əlillik hallarının baş verməsini azaldır. Zorakılığın qurbanı olan uşağın aşkarlanması müraciət olunan bütün müəssisələrdə aparılmalıdır, o cümlədən kənd və şəhər məktəblərində, tibb müəssisələrində, ixtisaslaşdırılmış uşaq tibb müəssisələrində və regional polis bölmələrində. Tibb işçiləri uşaqlara qarşı kobud davranışın və qayğısızlığın erkən aşkarlanmasında əsas rol oynayırlar. Onlar çox vaxt valideynlərin uşaqla hansı münasibətdə olmalarının yeganə şahidi olurlar.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Uşağa istənilən səbəbdən baxışın keçirilməsi (valideynlərin müraciəti zamanı, profilaktik baxış və s.) həkimdən müzakirə edilən problemə dair sayıq olmasını tələb edir, çünki hətta şikayətlər olmadıqda belə, zorakılığın ilk əlamətlərini görməyə real imkan yaranır. Baxış zamanı alınan bütün məlumatların tibbi kartaya qeyd olunması zəruridir, çünki bu məlumatlar məhkəmə zamanı əsas sübut kimi istifadə oluna bilər.

Uşaqlara qarşı zorakılıq halları aşağıdakı amillər əsasında şübhə yarada bilər:

- Uşağın bədənində zədə izləri (qançırlar, açıq yaralar, yeni cızıqlar, yeni çapıqlar, yaralar, gəzməkdə çətinliklər, bədənin müxtəlif hissələrində şişkinliklər, sümükdə çatlar, sınıqlar).
- Uşağın şübhəli davranışı (uşaq narahat, məyus, qorxmuş, məktəbə getməyə həvəssiz olur, müntəzəm dərs buraxır, oxumağa istəyi yoxdur, evə getməyə həvəssiz olur, yaşına uyğun olmayan nəzərəçarpan cinsi hərəkətlər edir, həmçinin yaşına uyğun olmayan dərəcədə cinsi əlaqə haqqında çox məlumatlı olur, xasiyyətində kəskin dəyişikliklər nəzərə çarpır, bədənində əmələ gələn yaraların səbəblərini izah edə bilmir).
- Uşaqda baxımsızlıq əlamətləri. Baxımsız uşaqlar şəraitə uyğun olmayan nazik, cırıq və çirkli geyimdə ola bilərlər. Onlar baxımsız (saçlara, dırnaqlara, ayaqlara, dəri infeksiyalarına, dəridə bişmələrə, solğunluğa nəzər yetirmək) və pis qoxulu, yeni səliqəsizliyin qəbuledilməz vəziyyətində ola bilərlər. İnkişafın qiymətləndirilməsi ən ağır hallara aid ümumi geriləməni, ya da inkişaf edilməsi üçün böyüklərin diqqətini tələb edən nitq və ünsiyyət bacarıqlarının geriləməsini aşkarlaya bilər.
- Uşağın davranışında dəyişikliklər. Bir çox uşaqlar müayinə səbəbindən həddən artıq həyəcanlı olur, lakin onları sakitləşdirdikdə həkim müayinəsinə razılıq verirlər. Bəziləri əksinə çox passivdirlər, belə ki, onların davranışı cinsi orqanların müayinəsi zamanı dəyişə bilər, məsələn, onlar həddən artıq qorxu keçirə bilərlər. Bu iki növ davranış cinsi zorakılıq qurbanlarına aid olan haldır.
- Əgər zorakılıq halına şübhə varsa, şübhənin əsaslandırılmış olmasını təsdiq etmək üçün araşdırmalar aparılır. Uşağın bədənindəki zədələrin müayinəsi zamanı aşağıdakı əlavə faktorlar aşkarlandıqda şübhə əsaslandırılmış hesab olunur:

Uşağın zorakılığa məruz qalması və ya məruz qalmaqda davam etməsi barədə öz ifadəsi.

- Zorakılıq halına şahidlik edən bir insanın ifadəsi;
- Müxtəlif mənbələrdən alınan məlumat;
- Valideynin qeyri-adekvat davranışları;
- zədələnmələrin ağırlıq dərəcələri ilə valideynin verdiyi izahatlar bir-birinə uyğun gəlmir və ya ziddir. Valideyn daim uşağın ifadəsinin detallarını dəyişdirir, valideyn uşağın yaralarına qeyri-adekvat reaksiya verir, o, zədələri həqiqətdə olduğundan daha az ciddiliklə qiymətləndirir və öz şəxsi problemlərinə daha çox diqqət yönəldir zədələrin səbəbləri ümumiyyətlə izah edilmir zədələnmələrdə uşağın özünün günahı olduğunu deyir, tibbi yardım üçün gec müraciət olunur, tibb personalına qarşı səbəbsiz aqressivlik, uşaqla davranışda emosional dəstəyin və məhəbbətin olmaması.

Ehtimal olunan zorakılığın bilavasitə olan əlamətləri:

- Travmadan dərhal sonra yox, bir müddət keçdikdən sonra həkimə müraciət edilib
- travma ilə bağlı valideynlərin izahları bir-birinə ziddir və həkimin gördüyü obyektiv şəkildən fərqlənir
- zədələr çoxsaylıdır, onların əmələ gəlmə tarixi müxtəlifdir, spesifik xüsusiyyətləri var (barmaq, əşya izləri)
- eyni tipli travmalarla müxtəlif müəssisələrə təkrar müraciətlər
- zorakılığın digər əlamətləri (inkişafdan geri qalma, sanitargigiyenik baxımsızlıq, vaxtında müalicə edilməmə)
- zədələrin əsasən bayram və ya istirahət günlərindən sonar əmələ gəlməsi



Fiziki zorakılıq qurbanı olan uşaqların vəziyyətinin qiymətləndirilməsi aşağıdakıları əhatə etməlidir:

- anamnez
- fiziki müayinənin məlumatları
- rentgen müayinəsinin protokolu
- qanın laxtalanmasının müayinəsi
- rəngli fotoşəkillər
- bacı və qardaşların müayinəsinin məlumatları
- rəsmi tibbi rəy
- zərərçəkənin davranışının xüsusiyyətləri
- zərərçəkənin emosional vəziyyəti
- uşağın inkişafının qiymətləndirilməsi

Zorakılığa məruz qalan uşaqların 90%-də müşahidə olunur. Bunlar qan damarları zədələndikdə qan dəri səthinə və dərialtı toxumalara sızanda əmələ gəlir. Qan-damar sisteminin ciddi xəstəlikləri istisna olmaqla, qansızmanın səbəbi travma olur.

Müxtəlif qançır növləri müşahidə oluna bilər:

- əl izləri
- əşya, məsələn, qayış, toqqa, qaytan izləri
- itələmək, atmaq, ilişmək nəticəsində alınmış qançırlar
- uşağı yırğalayaraq küt əşyaya vurmaq
- dişlənmək: insan dişlərinin izləri ellips şəklində qalır,

qançırlar xasdır

- naməlum mənşəli izlər
- təpik izləri
- yanıq izləri (siqaretlə, ütü ilə yandırma)

Hazırda uşaqlara qarşı zorakılığın profilaktikasının üç səviyyəsi müəyyən edilir:

1. İlkin profilaktika: bütün əhali üçün əlçatan olan müxtəlif xidmətlərin cəlb edilməsi; zorakılığa səbəb olan amillərin qarşısını alınması
2. İkinci dərəcəli profilaktika: zorakılıq baş verməzdən əvvəl yüksək risk qruplarını və aparılacaq tədbirləri müəyyən edən xüsusi tibbi və sosial xidmətlərin cəlb edilməsi.
3. Üçüncü dərəcəli profilaktika: uşaqlara lazımi qayğı göstərilməyən və ya uşaqlara qarşı zorakılıq faktları məlum olan sosial baxımdan uğurlu olmayan ailələrlə məşğul olacaq xüsusi tibbi və sosial xidmətlərin yaradılması.

Profilaktik strategiyalara aşağıdakı tədbirlər aiddir:

İlkin səviyyədə:

- Hamilələr, analar, yeni doğulmuş uşaqlar, azyaşlı uşaqlar və yeniyetmələrə göstərilən yardımın yaxşılaşdırılması
- Arzuolunmayan hamiləliklərin sayının azaldılması
- Hamiləlik zamanı alkoqol və narkotik maddələrin istifadəsinin tam dayandırılması
- Pozitiv analıq və atalığın təbliği
- Ailəyə dəstək, tibbi nəzarət
- Uşaqlarla kobud rəftar və qayğısızlıq problemi barədə cəmiyyətin məlumatlandırılması (kütləvi informasiya vasitələri ilə)
- Aztəminatlı ailələrə dəstək verməyin, ictimai təşkilatlar tərəfindən yardım etməyin mümkünlüyü
- İctimai səhiyyə proqramları
- Məktəb tədbirləri vasitəsi ilə zorakılığa qarşı təbliğat

İkinci səviyyədə:

- Uşaqlarla kobud rəftar və qayğısızlığa dair yüksək risk qrupuna aid ailələrin və uşaqların doğuşdan əvvəl müəyyənləşdirilməsi
- Regional sosial xidmətin və səhiyyə müəssisələrinin məlumatlandırılması
- Zorakılıq probleminin tibbi pediatriya proqramlarına daxil edilməsi

Üçüncü səviyyədə:

- Sosial baxımdan uğursuz ailələrin erkən aşkarlanması və eyniləşdirilməsi
- Təşkilatlararası əməkdaşlıq, o cümlədən zorakılıq baş vermiş ailələrdə zərərçəkənlərə tibbi yardım, məsləhətləşmə, sosial yardım və dəstəyin verilməsi
- Peşəkar tibb bacıları və sosial işçilər tərəfindən kobud rəftarın yüksək ehtimalı olan ailələrdə uşaqlara baş çəkilməsi xidmətlərinin göstərilməsi. Cəmiyyətdə uşaqlara qarşı kobud rəftarın qarşısını aşağıdakı yollarla almaq olar:
- Kiçik yaşlı uşaqları təhsilə hazırlayan müxtəlif məktəbəqədər inkişaf proqramları
- Uşaqlara həyat bacarıqlarını öyrədən təlimlər
- Kobud rəftarı yüksək ehtimal edilən qruplardan olan uşaqlara məktəb təhsilini bitirməyə köməyin göstərilməsi
- Alkoqola, narkotik maddələrə əlçatanlığın azaldılması
- Odlu silahlara əlçatanlığın azaldılması.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# Radikal müxalifətin arzuları

## Tarix bu düşərgənin uğursuzluqlarını unutmur

***Uzun illərdir siyasi arenada var-gəl edən müxalifətin, xüsusilə radikallıq və dağıdıcılıq prinsiplərindən çıxış edən düşərgənin yaratdığı bloklar, birliklər, hərəkatlar qısa zamanda fəaliyyətlərinə xitam verir və bu xitamlardan sonra tərəflər bir-birlərini xəyanətdə ittiham edirlər. Artıq 27-ci ilə keçid alan köhnə, nimdaş və nuh əyyamdan qalan radikallar və onların "liderləri" anlamağa məhkumdurlar ki, xalq, ictimaiyyət onların fəaliyyətlərini rədd edir, istənilən uğursuz ideyalarını qəbul etmir.***




Məgər dəfələrlə sübut olunmayıbmı ki, "SİDSUH", "DUH", "DUBB", "MKM", "Demkonqres", "Azadlıq", "Bizim Azərbaycan", "İctimai Palata", "Antiböhran koalisiyası" və s. çoxsaylı birliklər və bloklar parçalanıb tarixin zibilliyinə atıldıqdan sonra yaradılan yeni hərəkatlar da eyni acınacaqlı aqibətləri yaşayıblar? Əlbəttə ki, sübut olunub, ancaq bütün bunlara rəğmən, bu gün ölkənin siyasi gündəminə zorla dürtülən, özlərini xalqa məcburən sırımağa səy göstərən dağıdıcı müxalif ünsürlər hələ də başa düşmürlər ki, onların heç bir fəaliyyətləri uğur qazandırmayacaq, əksinə, daha dərin uçurumlara doğru yuvarlanacaqlar.

### İndi də növbəti parlament seçkisində xalq bir daha radikal "liderlər"in ən iyrənc sifətini gördü

Misal üçün, bu gün "Milli Şura", adlı təşkilat var ki, bu qurum xalq tərəfindən qəbul olunmur. Daxilində bir neçə cırtdan partiyaları və ayrı-ayrı şəxsləri birləşdirən bu qurum, əslində, Azərbaycan əleyhinə fəaliyyət göstərən xarici dairələrlə iş birliyi apararaq, müəyyən qrantlar qarşılığında sifarişlər qəbul edir. "Milli Şura"nın barəsində çox yazılıb, çox deyilib və onların necə deyərlər, hansı yuvanın quşları olduğu da bəllidir.

Qaldı ki bu yaxınlarda fəaliyyətini dayandıran "AXH"-yə, onun haqqında çox şeylər məlumdur.

Bir müddət əvvəl "AXH"lərdən birində təmsil olunan "Vətəndaş və İnkişaf Partiyası" qurumdan çıxdığını bəyan etmişdi. Həmin vaxt "VİP" mətbuat xidmətindən verilən xəbərdə bildirilmişdi ki, partiyanın siyasi şurasında təşkilatın "Azərbaycan Xalq Hərəkatı"nda iştirakına xitam verilməsi, partiyanın beynəlxalq əlaqələrinin gücləndirilməsi, təşkilati strukturlarının fəaliyyətinin yeni şəraitə uyğunlaşdırılması məsələləri müzakirə olunub. Sədr Əli Əliyev isə bildirib ki, müəyyən amillər "VİP"-in hərəkatda iştirakına xitam vermək zərurətini yaradıb. Nəticədə həmin müzakirələrdə iştirak edən siyasi şura üzvləri "VİP" sədrinin toxunduğu məsələlər ətrafında fikirlərini bildirərək, yeni situasiyada atılacaq addımları dəyərləndiriblər. Siyasi şurada keçirilmiş səsvermədən sonra "VİP"-in "AXH"də iştirakına xitam verilməsi haqqında qərar qəbul olunub.

Bu yaxınlarda partiyanın sədri Əli Əliyev mətbuata açıqlamasında bildirib ki, birlik modellərinin tez dağılmasının səbəblərini yalnız müxalifətdə axtarmaq lazım deyil, burada ayrı-ayrı şəxslərin də öz maraqlarını güdmək kimi məsələr dayanır. 9 fevralda keçirilən parlament seçkilərindən cuşə gələn müxalifət bu qədər biabırçı uğursuzluqdan sonra hansı üzlə "birlikdən" danışırlar. Ə.Əliyev bildirib ki, əvvəlcə öz daxillərində "birlik" yaratsınlar, sonra çağırış etsinlər: "Bu lap biabırçı həyasızlıqdır. Bilirsiniz, həmin birliklərdə təmsil olunan hər bir partiyanın öz ayrıca kursu olur. Bizim parlament seçkisi ilə bağlı və "Azerifreedom" kanalında bir daha çıxış etməməklə bağlı bəyanatımız oldu... Ancaq məqsədli, intriqalı müxalifət "liderləri" - "kor tutduğunu buraxmadığı" kimi yenə də başlayıblar "dədəm mənə kor deyib, gəlib-gedəni vur deyib" kimi deyil. Ona görə də, biz başqa siyasi qüvvələrin məsuliyyətini bölüşmək istəmirik. Hesab edirik ki, müəyyən məsələlərdə olan fikir ayrılığı bizim müəyyən siyasi hədəflərimizə çatmaq üçün problemlər yarada bilər. Ona görə də çalışırıq ki, bir qədər məsafəli davranaq. Bunu da normal qəbul edirik. Çünki müstəqil siyasi qurumuq, belə qərarları vermək səlahiyyətinə sahibik. "Azerifreedom"la əlaqəmizi kəsməyimiz isə oranın yürütdüyü informasiya siyasəti ilə bağlıdır. Oranın apardığı təbliğat bizim siyasi hədəflərimizdən və mübarizə vasitələrimizdən fərqlidir".

Bir məqamı da vurğulamaq yerinə düşər ki, Ə.Əliyevin də əvvəlki məqsədlərini yada salsaq, bu gün belə "obyektiv" danışmasının səbəbini aydın görərik. Daha doğrusu, əgər Ə.Əliyevin maraqları təminatı olsaydı, daha dəqiq desək, siyasi və maddi gəlirləri təmin olunsaydı, 9 fevralda keçirilən parlament seçkilərində də popuqay kimi mənasız hay-küyü ilə çıxışlar edərdi. Ancaq göründüyü kimi, nəinki onun özü, eləcə də digər partiyaların da istəkləri reallığa çevrilmədi. Bir sözlə, ictimai rəy çox yaxın zamanlarda belə əndrabadi qurumların da tarixin zibilliyinə atılacağının şahidlərinə çevriləcək. Əlbəttə ki, lüzumsuz, heç nəyə yaramayan "Milli Şura" kimi... Çünki tarix bu düşərgənin uğursuzluqlarını unutmur.

***Rəfiqə HÜSEYNOVA***

# Misir məhkəməsi ABŞ səfirliyinə hücum edənlər barəsində hökm çıxarıb

Qahirə Ağır Cinayətlər Məhkəməsi 2013-cü ilin iyulun 22-də ABŞ səfirliyi qarşısında iğtişaş törədən şəxslər barəsində hökm çıxarıb. AZƏRTAC "Egyptindependent" informasiya agentliyinə istinadla xəbər verir ki, müttəhimlərdən biri ömürlük, 14-ü isə 15 il azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Bir nəfər barəsində bəraət hökmü çıxarılıb.

Qahirə Prokurorluğu bildirib ki, məhkum olunmuş şəxslər sabiq Prezident Məhəmməd Mursinin hakimiyyətdən devrilməsi zamanı Tahrir meydanından Birləşmiş Ştatların səfirliyinə yürüş edərək burada iğtişaşlar törədiblər. Onlara qarşı bir neçə qanun keşikçisini yaralamaq, dövlət əmlakına ziyan vurmaq, qanunsuz silah saxlamaq və əhalini terror etmək ittihamları irəli sürülüb. Prokurorluq İtaliyada təhsil alan və hazırda həbsdə olan Patrik Corc Zəkinin istintaq təcridxanasında işgəncələrə məruz qalması barədə iddiaları da təkzib edib.


## ELAN

ADPU-nun Riyaziyyat ixtisası üzrə III kurs tələbəsi Şabanova Bilurə Mahir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


## Qaradağda ölümlə nəticələnən yol qəzası baş verib

Qaradağ rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Salyan rayon sakini B.Bayramov idarə etdiyi "Ford Transit" markalı avtomobili Ələt qəsəbəsi ərazisində Bərdə rayon sakini Zaman Abdullayevin idarə etdiyi "KİA" markalı avtomobilə vurub. Bundan sonra "KİA" markalı nəqliyyat vasitəsi yolun kənarındakı reklam lövhəsinə çırpılıb. Nəticədə Z.Abdullayev və sərnişini Seyfəddin Abbasov hadisə yerində ölüblər.

Qəzadan sonra B.Bayramov hadisə yerini tərk edib. O, keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Hadisə ilə bağlı Daxili İşlər Nazirliyinin Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır.



## Əli Kərimlinin "boykot" xəstəliyi...

**RƏFİQƏ**

***Parlament seçkiləri ərəfəsində müxalifətli-iqtidarlı, ümumiyyətlə, MSK tərəfindən namizədlikləri qeydə alınmış şəxslərin ciddi hazırlıq işlərinin getməsi və bu gün uğursuz seçki nəticələri göz önündədir. Bu reallıq xalqın seçkilərdə fəallıq göstərəcəyini də bəri başdan proqnozlaşdırırdı. Yəni xalq seçkilərə birmənalı olaraq inamla getdi. Lakin...***

Lakin daha bir ilginc məqam budur ki, bu seçkilərdə "boykot taktikası" deyilən uğursuz cəhdə əl atanlar, yaxud həmin "taktikanı" əvvəlcə əllərində bayraq edib, sonradan fikirlərini dəyişərək, seçkilərə qatılanların da məqsədləri üzə çıxdı. Misal üçün, əgər AXCP sədri Əli Kərimli partiyası və "Milli Şura" adından seçkilərə qatılmayacağını bildirirdisə, onun kimi digər cinahda olanlar da demək olar ki, eyni mövqeni sərgiləyirdilərsə, seçki günü həmin mövqedən geri çəkilib parlament seçkilərinə gedəcəklərini bəyan edən "VİP" sədri Əli Əliyev və digərləri bu seçkilərdən sonra sosial şəbəkələrdə verdikləri açıqlamalarında bildiriblər ki, müxalifətin yenə də növbəti uğursuzluğunda  və dağılmasında həqiqətən də Ə.Kərimlinin günahı kifayət qədərdir. Bu gün AXCP sədrinin sözü, özü, ümumiyyətlə, "varlığı" kimsənin marağında deyil, heç belə də olmayıb. Biz elə də uzağa getməyərək, yay aylarında onun icazəsiz küçə yürüşlərindəki siyasi klounluqlarını xatırlaya, xalqın isə ona və ətrafına dəstək göstərmədiyini göstərə bilərik. Bunu isə ona görə xatırladıram ki, on minlərlə seçici - xalq gerçəkliyi olaraq kimlərinsə "boykot taktikasını", ümumiyyətlə hesaba almır. Bu yerdə türk qardaşlarımız dediyi fikrə qüvvət: kimsənin umurunda deyil ki, Ə.Kərimli siyasi sirkinin - AXCP-nin səhnəsində hər-hansı polyaçilik nömrəsini göstərir. Açığını desək, Ə.Kərimli hətta sirk klounu olsaydı belə, yenə də bir uğur qazana bilməzdi. O "UĞURSUZ!" damğası emblemini çoxdan alnına yapışdırıb".

Bəli, seçkilər də keçirildi, qalib olmağa layiq olanlar da parlamentin növbəti - 6-cı çağırışına seçildi, bəzi elə Ə.Kərimli kimi satqın müxalifət liderlərinin pozğunluqları da üzə çıxdı. Daha doğrusu, dəyişilməyən bir şey oldu - Ə.Kərimli kimi ünsürlər seçkilərdə iştirak etməsə belə, seçkisonrası proseslərə burnunu dürtdü. Kökdən düşmüz sazını dınqıldatmağa və dalay-dalaylarına. Maraqlıdır, görəsən, Ə.Kərimli kimi boşboğaz və satqın radikal "liderlər" bu sualı verirlərmi? İnanmıram. Çünki hamısı bir bezin qırağıdır, sərf etmir bu sualı verməyə. Özü kimi Vətən xainləri Xədicə İsmayıl, Leyla və Arif Yunus- bağdasaryanlarla iş birliyi yaradaraq, Azərbaycan əleyhinə aparılan təxribatlarda iştirak edən, özünə münasib saytlarda, sosial şəbəkələrdə "qəhrəmanlıqlarından" gen-bol danışan, hər bir işdə buynuz çıxaran Ə.Kərimli bu məsələdə də xəyanətkar niyyətini gizlətmədi. Özünü bütün partiyalardan fərqli mövqeyə malik olduğunu göstərməyə çalışaraq seçkiləri "boykot" edəcəyini bildirməklə siyasi mübarizədə oyundankənar vəziyyətdə qaldığını təsdiqlədi. Başqa çıxış yolu da yoxdur. Çünki bilir ki, partiyada elə mürəkkəb qarşıdurma şəraiti yaradıb ki, bütün üzvlərin dəstəkləyəcəyi düz-əməli namizədi tapmaq müşkülə dönüb. Namizədləri olsa da onlara səs verib, etimad göstərəcək sosial bazaları yoxdur. Belə yerdə deyiblər ki, yoxun da, kasıbçılığın da üzü qara olsun. Qutuda qalacaqlarını bilən, rənginin daha da qatılaşmasını istəməyən Ə.Kərimlinin bu yolu seçməkdən başqa çarəsi yoxdur. Amma əlbət bir gün onun yaxasından yapışıb soruşulan gün də olacaq ki, ay kloun, axı sən "boykot taktikası" adı altında bu hadisəyə qatılmayıbsansa, bəs indi nə oldu? Niyə axı özünü, sözün əsl mənasında, didib-tökməklə məşğulsan- Ə.Kərimli? Çünki boykot xəstəliyinə tutulan bu zat siyasi sistemdə özünü yoxetmə yolundadır və bu seçimin bütün məsuliyyəti şəxsən onun öz üzərindədir. Çünki artıq 26 ildir ki, Vətən satqını Ə.Kərimli elə bir boykot xəstəliyinə tutulub ki, əlacı ancaq özünün siyasi meyit olduğunu etiraf edib siyasətdən birdəfəlik çəkilməsidir. Onsuz da çoxdan tarixin zibilliyinə atılmış bu zatın gedəcəyi son yol tarixin zibilliyidir.

# İNSAN HÜQUQLARININ POZULMASI: KÖLƏLİK

***Köləliyin anlayışı 1926-cı il Köləlik Haqqında Konvensiyada aşağıdakı kimi verilir: Şəxsin üzərində sahiblik hüquqlarına aid olan səlahiyyətlərdən hər hansı birinin və ya hamısının həyata keçirildiyi vəziyyət və ya şərait". Bu anlayışdan, eyni zamanda, UNODC-nin İnsan Alverinə qarşı Nümunəvi Qanununun 5(1)(t) maddəsində də istifadə olunur. Bu, köləliyin mövcud beynəlxalq hüquqi anlayışıdır. Bu, iyirminci əsrin əvvəlinə aid edilsə də, onun hələ də etibarlılığı həm müqavilə, həm də presedent hüququnda təsdiq olunmuşdur.***

Prokurorun Kunaraç, Kovaç və Vukoviçə qarşı çıxış etdiyi işdə KYBM belə bir qənaətə gəlmişdir ki, "köləliyin" ənənəvi konsepsiyası köləliyin müasir formalarını əhatə edəcək qədər genişlənmişdir. Bu anlayış, bu gün də, həm insan alveri ilə bağlı vəziyyəti başa düşmək baxımından, həm də insan alverinin yeni və meydana çıxan formaları baxımından uyğun olaraq qalır. Köləliyə oxşar hallar Köləliyin, kölə ticarətinin və köləliyə bənzər halların aradan qaldırılması haqqında Əlavə Konvensiyanın (1956-cı il) 1-ci maddəsində deyilir ki, bu Konvensiyanın iştirakçısı olan dövlətlərin hər biri tədricən uyğunlaşdırma və mümkün qədər qısa müddətdə aşağıdakı institutların və halların tamamilə aradan qaldırılması və ya ləğvi üçün praktik baxımdan mümkün və zəruri olan bütün qanunvericilik və zəruri tədbirləri görməlidir, "(a) Borc asılılığı, yəni, normal halda həmin xidmətlərin dəyəri borcların aradan qaldırılması üçün tətbiq edilmədikdə yaxud bu xidmətlərin göstərilmə müddəti və onların xüsusiyyətləri uyğun şəkildə məhdudlaşdırılmadıqda və ya təyin olunmadıqda, borclu şəxs tərəfindən onun öz şəxsi və ya onun nəzarəti altında olan şəxsin xidmətlərinin göstərilmə vədindən irəli gələn vəziyyət və ya şərait; (b) Təhkimçilik, yəni, qanuna, adətə və ya xalq hüquqi anlayışlar vardır. "Köləliyə bənzər hallar", hamısına beynəlxalq hüquqda anlayışı verilməklə, borc asılılığını, istismar üçün uşaq alverini, təhkimçiliyi və nikahın kölə formalarını əhatə edir. Bunlar Köləliyin Aradan Qaldırılması haqqında Əlavə Konvensiyadakı xüsusi qadağalara uyğundur. Orqanların çıxarılması Aİ-nin 2011/36/EU nömrəli Direktivində deyilir ki, orqanların çıxarılması məqsədilə insan alveri insan ləyaqətinin və fiziki toxunulmazlığın ciddi pozuntusudur. Orqanların çıxarılması üçün insan alveri hallarının təqib olunmasında və araşdırılmasında artım olsa da, hələ də problemin həcmi barədə dəqiq məlumat yoxdur və istismarın xüsusiyyətləri başa düşülmür. BMT-nin İnsan Alverinə dair Protokolunun 3(a) maddəsində "orqanların çıxarılmasına insan alverinin məqsədi ola bilən istismar forması kimi anlayış verilir. AŞ Konvensiyasının 4(a) maddəsi də "orqanların çıxarılmasını" istismarın bir forması kimi nəzərdə tutur. Orqanların çıxarılması üçün insan alveri hallarının insan alveri anlayışının əhatə dairəsinə düşdüyünü sübuta yetirmək çətindir.Burada razılıq məsələləri vardır və iddia oluna bilər ki, donorlar öz orqanlarının çıxarılmasına razılıq vermişlər və razılıq həqiqətən verilmişdir və onlar buna görə ödəniş kin bu günə qədər uşaqların qurban kimi müəyyənləşdirilməsinə dair birbaşa dəlillər yoxdur. Medicus Klinikası - Pristina, Kosovo Aİ-nin Kosovoda apardığı məhkəmə beş nəfər şəxsi insan orqanlarının alveri şəbəkəsi ilə bağlı təqsirli bilmişdir. Bu beş nəfər Medicus Klinikasında xeyli sayda qanunsuz köçürmələri həyata keçirməkdə təqsirləndirilirdi. Bu ticarət klinikada böyrəklərindən birinin çıxarılmasından sonra türkiyəli bir kişi xəstəliyə düçar olarkən aşkar edilmişdir. Bu işə Eulex, Avropa İttifaqının qanunvericiliyi ilə və həssas məsələləri idarə etmək üçün Kosovoda hazırlanmış heyətlə baxılmışdır. Xüsusi məhkəmə müəyyən etmişdir ki, Medicus Klinikası Şərqi Avropadan və Mərkəzi Asiyadan yoxsul insanları cəlb edərək, onlara orqanlarına görə 15.000 avro vəd etmişdir. Donorlar Moldovadan, Qazaxıstandan, Rusiyadan və Türkiyədən gəlmişdilər və "kəskin yoxsulluq və ya kəskin maliyyə çətinliyi içərisində" yaşayanlar idi, ittihamnamədə deyilirdi: "Onlar yalnız idilər, yerli dildə danışmırdılar, nə etdiklərini yaxşı bilmirdilər və onların maraqlarını müdafiə edən heç kim yox idi". Orqanları alanlar deyilənə görə əsasən İsraildən idilər və onlar köçürülən orqanların hər biri üçün 80.000 - 100.000 avro arasında ödəniş etmişdilər. Prokurorların

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

sazişə əsasən digər şəxsə məxsus olan yerdə yaşamalı və işləməli və haqqı ödənilməklə və ya ödənilməməklə bu cür digər şəxsə müəyyən xidmət göstərməli olan və öz statusunu dəyişməkdə sərbəst olmayan icarədarın şəraiti və ya statusu; (c) Aşağıdakıların yer aldığı hər bir institut və ya hal:(I) İmtina etmək hüququ olmadan, bunun müqabilində pul və ya natural şəkildə valideynlərə, qəyyuma, ailəyə və ya hər hansı bir digər şəxsə və ya qrupa ödəniş etməklə qadının vəd edilməsi yaxud ərə verilməsi; və ya (II) Qadının yoldaşının, onun ailəsinin və ya onun tayfasının qadını qəbul edilən hər hansı bir qiymətə yaxud başqa bir şəkildə digər şəxsə ötürmək hüququna malik olmaları; və ya (III) Qadının həyat yoldaşı vəfat etdiyi halda onun digər bir şəxsə keçməli olması; (d) 18 yaşadək olan uşağın və ya gəncin valideynlərdən hər hansı biri və ya hər ikisi yaxud onun qəyyumu tərəfindən, haqqı ödənilməklə və ya ödənilməməklə, uşağın və ya gəncin yaxud onun əməyinin istismarı məqsədilə, digər bir şəxsə verilməsi". Köləliyə bənzər hallara dəqiq beynəlxalq hüquqi anlayış verilmir. Lakin qanunvericilikdə real əhatə dairəsi və məzmunla bağlı ümumi anlayış vardır və "köləliyə bənzər hallar" kateqoriyasına aid edilən hallarla bağlı razılaşdırılmış beynəlalmış ola bilərlər. Qurbanlar bütün fəsadlar və prosesin təsiri barədə tam məlumatlı deyillərsə, demək olar ki, onlar ya buna məcbur edilmişlər, ya da müdafiəsiz vəziyyətdədirlər. Əksər dövlətlər orqanların çıxarılması üçün insan alverini öz insan alveri ilə mübarizə üzrə milli qanunlarına daxil etsələr də, təqiblər hələ də məhduddur. Avropa Şurasının İnsan Hüquqları və Biotəbabət haqqında Konvensiyası və orqanların köçürülməsi barədə ona 2002-ci ildə əlavə olaraq qəbul edilmiş protokol insanın bədən orqanlarının ticarətin maliyyə gəlirinin əldə edilməsini, habelə "orqan və toxuma" alverini qadağan edir.

Burada donorlar (potensial qurbanlar) üçün ilk olaraq elan verən yerli şəxslər olur, bundan sonra donorların sayı adətən artır. İnsan alverçiləri çox vaxt şəbəkələrin aktiv olduğu dövlətləri gəzən beynəlxalq vasitəçilər olur. Orqanı qəbul edənlər 100.000 - 160.000 ABŞ dolları ödəyə bildiyi halda, donora yalnız 2.500 - 10.000 ABŞ dolları ödənilir. Orqan, təchizatda dövlət orqanlarında çatışmazlıqlar, əlavə olaraq bunun heç də bütün dövlətlərdə cinayət hesab edilməməsi və bundan böyük gəlir əldə etmənin mümkünlüyü bu əməli insan alverçiləri üçün cəlbedici edir. Uşaqlar da orqanların çıxarılması məqsədilə insan alverinə məruz qala bilərlər, lakin dediklərinə görə 2008-ci ildən bəri Medicus Klinikasında ən azı 30 qanunsuz böyrək çıxarmaları və köçürmələri aparılmışdır. Klinikanın rəhbəri, uroloq Lütfi Dervişi mütəşəkkil cinayətkarlığa və insan alverinə görə səkkiz il həbs cəzasına məhkum olunmuşdur. Onun oğlu Arban yeddi il üç ay müddətinə, qalan müttəhimlər isə bir ildən üç ilədək müddətə həbs cəzasına məhkum olunmuşlar. http://www.bbc.co.uk/news/world-europe-22343589 Dilənçilik Nə BMT-nin İnsan Alverinə dair Protokolunda, nə də AŞ Konvensiyasında "dilənçiliklə" bağlı heç bir qeyd yoxdur. Lakin Aİ-nin 2011/36/EU nömrəli Direktivi "dilənçiliyi" bir istismar forması kimi nəzərdə tutur və bu sənəddə deyilir ki, "bu Direktiv baxımından məcburi dilənçilik BƏT-in 1930-cu il İcbari və ya Məcburi Əmək haqqında 29 No-li Konvensiyasında təyin olunduğu kimi, məcburi əməyin və ya xidmətlərin bir forması kimi başa düşülməlidir. Buna görə də dilənçiliyin istismarı, o cümlədən insan alverinə məruz qalan şəxsdən dilənçilik üçün istifadə yalnız məcburi əməyin və ya xidmətlərin bütün ünsürləri baş verdiyi halda insan alveri anlayışının tətbiq dairəsinə düşür". "Dilənçiliyin" qurbanları çox vaxt dilənmək üçün təlim keçmiş uşaqlar olur. Onlar həm cinayətkar şəbəkələr, həm də öz ailələri tərəfindən istismar olunurlar. Uşaqlar 20.000 avroya satılmışlar və onlar ildə 100.000 avrodan çox gəlir gətirə bilərlər. Dilənçilik Aİ dövlətlərində yayılmaqda olan yeni hədələrdən biridir. 96 Müstəqil Dövlətlər Birliyində uşaqlar uşaq evlərindən alınmış və insan alverçilərinə satılmışdır, yaşlı və zəiflər dilənçilik etməyə məcbur edilmişlər və qurbanların daha çox gəlir qazanmaq üçün şikəst edildiyi hallar da vardır. Correctionnel de Nivelles Tribunalı - Dilənçilik işi üzrə məhkum etmə. Belçikanın Nivey Cinayət Məhkəməsi. Məhkum etmə tarixi: 25 yanvar 2013-cü il. İstismar məqsədi: Dilənçiliyə məcbur etmə. Slovakiyada yaşayan macarıstanlı şəxsin dilənçilik üçün istismar etmək məqsədilə bir qrup insanı aldatdığı iddia edilirdi. Bu insanlara ciddi xəsarətlər yetirilərək onlar əlil vəziyyətinə salınmışdı və sosial və sağlamlıq baxımından belə bir müdafiəsiz vəziyyətdə onların bu şəxsin pis niyyətlərinə dözməkdən başqa alternativləri yox idi. İnsan alverçisi çox vaxt ilk olaraq yuxarıda qeyd olunan şəxslərin qohumu olduğunu iddia edirdi və onları yaşadıqları çətin vəziyyətdən çıxaracağını söyləyirdi. Sonra onlar bu əməli törədən şəxslə eyni mənzildə (və ya bir maşında yatmağa) və Belçikada mağazaların avtomobil dayanacaqlarında dilənməyə məcbur edilirdilər.Onlar orada əlil arabasında əllərində pul istədiklərini göstərən bildirişlərlə qoyub gedilirdi. Əməli törədən şəxs yekunda bütün bunları həmin əlil insanların Slovakiyada aldıqları sosial müavinətlərlə birgə onların əlindən alırdı. İnsan alverçisi altı il müddətinə azadlıqdan məhrum olunma və 30.000 avro məbləğində cərimə cəzasına məhkum edilmişdir.

Məcburi və ya kələcəsinə nikaha girmə hər hansı bir beynəlxalq hüquqi sənəddə birbaşa nəzərdə tutulmur. Lakin məcburi nikahın insan alveri olub-olmamasını müəyyənləşdirən faktorlara güc tətbiqi, dələduzluq və məcburetmə (iqtisadi və / və ya cinsi), habelə müdafiəsizlik vəziyyətindən suiistifadənin mümkünlüyü aiddir. Qurbanların cəlb oluna biləcəyi istismar hallarına köləlik, kölə vəziyyətinə salma, ev köləliyi və / və ya cinsi istismar aiddir. Məcburi nikah ən azı tərəflərdən birinin öz iradəsi əleyhinə ailə qurduğu və onun razılığının olmadığı dərin tarixi köklərə malik bir haldır. Məcburi nikah, həmyaşıdları tərəfindən təzyiqə və müdafiəsizlik vəziyyətindən sui-istifadəyə məruz qalan qurbanlarla mədəni adətlərin nəticəsi ola bilər.Qurbanlar çox vaxtı yekun nəticədən xəbərsiz olurlar və məcburi nigah nəticəsində onu alan ailə tərəfindən ev qulluqçuları və cini kölələr kimi istismar olunurlar.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

22 fevral

Son səhifə




## Prezident zəng etdi, amma itinə görə Çindən ayrılmadı

***Ö**tən gün koronavirusun geniş yayıldığı Çinin Uhan şəhərində yaşayan Ukrayna vətəndaşları Kiyevə təxliyə olunublar. Qafqazinfo xəbər verir ki, 3 ildir Çində yaşayıb işləyən Anastasiya Zinçenko pomerianian cinsindən olan Mişa adlı itinə görə şəhəri tərk edə bilməyib. Belə ki, Çin hökuməti Anastasiyaya 6 ay öncə aldığı itini özü ilə Ukraynaya aparmağa icazə verməyib.*

Ukraynanın Çindəki səfirliyi açıqlama yayaraq bildirib ki, Mişanın sahibi ilə Çindən çıxarılması üçün əllərindən gələni etsələr də, Çin səlahiyyətlilərindən icazə ala bilməyiblər. "Səfirlik bir neçə dəfə Çinin dövlət orqanlarına müraciət etdi və Anastasiyaya iti ilə Uhandan uçmaq üçün fürsət verməlarini istədi. Ancaq karantin tədbirləri səbəbiylə Çin səlahiyyətliləri xanım Anastasiyanın ev heyvanını evakuasiya etməyə razılıq vermədilər. Buna səbəb Anastasiyanın iti xaricə aparmaq üçün lazımi sənədlərinin olmamasıdır". Ukraynanın "Business Media" nəşri yazır ki, Prezident Vladimir Zelenski Anastasiya Zinçenkoya zəng edib. O, vəziyyəti şəxsən nəzarətinə götürəcəyinə söz verib.

## Messiyə 700 milyon avroluq sürpriz təklif!




***"**Barselona"nın ulduzu Lionel Messiyə ABŞ-dan təklif var. Bu barədə Amerikanın məşhur idman kanalı - ESPN məlumat yayıb. İddiaya görə, "Los Anceles Qalaksi" argentinalı ulduzu heyətinə qatmaq istəyir.*

MLS klubu Messi üçün mövsümün sonunda "Barselona"ya rəsmi təklif göndərəcək. "Los Anceles Qalaksi" komandanı tərk edən və "Milan"a dönən Zlatan İbrahimoviçin yerini Messi ilə doldurmaq istəyir. Artıq klub rəsmilərinin futbolçunun atası ilə danışıqlara başladığı bildirilir. İddiaya görə, "Los Anceles Qalaksi" Messinin müqaviləsindəki təzminatı - 700 milyon avronu "Barselona"ya ödəmək niyyətindədi.



## PSJ yayda Tomas Tuhellə vidalaşır?

Daha bir Fransa klubunda baş məşqçi dəyişikliyi gözlənilir. Belə ki, son vaxtlar uğur zolağından kənarda qalan PSJ,mövsümün sonunda baş məşqçisi Tomas Tuhellə yolları ayırmaq barədə düşünür. Fransa mətbuatının yazdığından belə aydın olur ki, Paris klubunun ərəb rəhbərliyi almaniyalı mütəxəssisə qapını göstərmək barədə düşünür. Fransa KİV-lərinin yazdığına görə, Tuhellə istədikləri hədəfə çata bilməyəcəklərini düşünən klub rəhbərliyi onu Massimiliano Alleqri və ya Maursio Sarri ilə əvəzləmək istəyir. Qeyd edək ki, Tuhel 2018-ci ildən Paris klubunu çalışdırır.

## Bakıda qaçırılan "Toyota Prado" Göyçayda tapıldı



Bakıda avtomobil qaçıran şəxs tutulub. XəzərXəbər Daxili İşlər Nazirliyinə istinadən xəbər verir ki, Nəsimi RPİ-nin 19-cu Polis Şöbəsinə müraciət edən Bakı şəhər sakini A.Məmmədxanlı fevralın 18-də R.Məmmədov küçəsindən "Toyota Prado" markalı avtomobilinin qaçırıldığını bildirib.

DİN-in Təhlükəsiz Şəhər Xidməti, Nəsimi RPİ 19-cu PŞ və Göyçay RPŞ əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində qeyd edilən nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən Göyçay rayon sakini H.İsmayılov Göyçay rayonu ərazisində saxlanılıb. Araşdırma aparılır.

## Çin açıqladı: "Gələn ay koronovirusa tam qalib gələcəyik"




**Çin martın sonuna qədər bütün ölkə ərazisində koronavirusa qalib gələcək. Bakupost xəbər verir ki, bu açıqlamanı Çin Xalq Respublikasının Rusiyadakı səfiri Can Xanxuey verib. "Biz bu virus üzərində tam qələbə qazana bilərik. Hubey əyalətindən başqa, virus digər bölgələrdə fevralın sonunadək ram ediləcək. Virusun mərkəzində isə növbəti ay koronovirusu tamamilə aradan qaldırmaq mümkündür".**

Səfir əlavə edib ki, bu günə qədər 18 min xəstə hospitaldan buraxılıb: "Mərkəzi bölgədən başqa bir çox əyalət və bölgələrdə 10 gündən çoxdur ki, yeni infeksiyaya tutulma qeydə alınmayıb. Hubey əyalətində, xüsusən Uhan şəhərində isə koronavirusa yoluxanların sayı azalmaqdadır".

## I sinfə qəbul qaydaları açıqlanıb



2020-2021-ci dərs ilində ölkənin bütün ümumi təhsil müəssisələrinin I siniflərinə şagird qəbulu elektron qaydada həyata keçiriləcək.

Təhsil Nazirliyindən Trend-ə verilən məlumata görə, tədris Azərbaycan dilində aparılan məktəbəhazırlıq qruplarına cəlb olunmuş uşaqlar elektron sistemdə avtomatik olaraq təhsil aldıqları məktəblərin birinci siniflərinə qəbul ediləcəklər. Martın 10-dan etibarən həmin uşaqların valideynləri və ya qanuni nümayəndələri şəxsi elektron kabinetlərindən (www.mektebeqebul.edu.az) ərizə formasını çap edərək hazırda təhsil aldıqları məktəbə təqdim etməlidirlər. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, təhsil digər dildə aparılan məktəbəhazırlıq qruplarına cəlb olunmuş uşaqların birinci siniflərə qəbulu həmin dildə şifahi nitq bacarığını qiymətləndirən müsahibələrin nəticəsi əsasında həyata keçiriləcək. Müsahibələr fevralın 24-dən martın 3-dək yerli təhsili idarəetmə orqanları tərəfindən təşkil ediləcək. Bu barədə yerli təhsili idarəetmə orqanları tərəfindən valideynlərə müvafiq məlumat verilir.

Məktəbəhazırlıq qruplarına cəlb olunmamış uşaqların birinci sinfə qəbulu da elektron qaydada (www.mektebeqebul.edu.az) həyata keçiriləcək. Bunun üçün valideynlər martın 10-dan başlayaraq elektron qeydiyyatdan keçməlidirlər. Martın 13-dən isə məktəb seçimini həyata keçirə bilərlər. Eyni qaydada, digər dildə təhsil almaq istəyən uşaqların birinci siniflərə qəbulu həmin dildə şifahi nitq bacarığını qiymətləndirən müsahibələrin nəticəsi əsasında həyata keçiriləcək. Bu müsahibələr aprelin 1-dən başlayaraq təşkil olunacaq.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**